Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

# *Sədaqət Kərimova*

## *Biblioqrafiya*

**BAKI – 2014**

**KBT** Я19:Ш6(2=Аз)+Ш6(2=Аз)7-30я1+Ш6(2=Лез)7я1
**UOT** 016:821.512.162+016:821.351.32

**Tərtibçi:** **Mehriban Cəfərova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Kərim Tahirov,** *professor, Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,** *Əməkdar mədəniyyət işçisi*

**Sədaqət Kərimova:** biblioqrafiya /tərt. ed. M.Cəfərova; ixt. red. və burax. məsul K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2014.- 328 s.

Vəsait Azərbaycan və Dağıstan ədəbiyyatının tanınmış nümayəndəsi, şair, yazıçı və publisist Sədaqət Kərimovanın həyat və yaradıcılığının 1966-2014-cü illərini əhatə edir. Vəsaitdə S.Kərimovanın həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri, əsərləri, həyat və yaradıcılığı haqqında məlumatlar toplanmışdır.

Kitab mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 504 02 6

**© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2014**

## Tərtibçidən

Azərbaycan və Dağıstan ədəbiyyatının tanınmış nümayəndəsi, şair, yazıçı və publisist Sədaqət Qayınbəy qızı Kərimovanın qələmə aldığı nəzm və nəsr əsərləri, o cümlədən şeir və poemaları, hekayə, povest və romanları, pyesləri, oçerk və məqalələri çağdaş Azərbaycan və Dağıstan ədəbiyyatının dəyərli nümunələri sırasında öz layiqli yerini tutmuşdur. Azərbaycan, ləzgi və rus dillərində yazan müəllifin bir sıra əsərləri Dağıstan xalqlarının dillərinə, eləcə də türk dilinə tərcümə olunmuşdur.

S.Kərimova haqqında ilk biblioqrafiya 2003-cü ildə nəşr edilmişdir (Sədaqət Kərimova - 50 /tərt. Bəybala Ələsgərov; red. Leyla Qafurova; M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası.- Bakı, 2003). Azərbaycan Milli Kitabxanası tərəfindən yenidən işlənmiş, daha da təkmilləşdirilmiş, yeni quruluşda tərtib olunmuş və yazıçının çoxşaxəli yaradıcılığını hərtərəfli əks etdirən bu biblioqrafik göstərici 1966-2014-cü illərdə dərc olunan materialları özündə əks etdirir.

3 dildə - Azərbaycan, ləzgi və rus dillərində tərtib edilmiş göstərici 2 hissədən ibarətdir: I hissədə - Sədaqət Kərimovanın əsərləri; II hissədə - Sədaqət Kərimova haqqında materiallar toplanmışdır. Biblioqrafik göstəricidə materiallar janr və forma müxtəlifliyi nəzərə alınaraq bölmələrə ayrılmış, daxildə isə xronoloji prinsiplə, əlifba sırası üzrə qruplaşdırılmışdır.

Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi göstəricilər tərtib olunmuşdur.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 29;
E-mail: contact@anl.az; URL: www.anl.az

## Parlaq istedad sahibi

Azərbaycan və ləzgi ədəbiyyatının görkəmli simalarından biri olan, əsərləri ilə yalnız Azərbaycanda və Dağıstanda deyil, hər iki respublikanın hüdudlarından kənarda da tanınan Sədaqət Kərimovadan söhbət düşəndə hamı bir nəfər kimi etiraf edir ki, o, parlaq istedad sahibidir. Onun özəlliyi təkcə çoxşaxəli yaradıcılığa malik olması deyil, həm də məşğul olduğu sahələrin hər birində yüksək peşəkarlıq nümayiş etdirməsidir.

Sədaqət Kərimova haqqında danışarkən ilk növbədə onun poeziyası yada düşür. Odlu-alovlu təbi, dərin fəlsəfi məzmunu, dadlı-şirəli dili ilə seçilən şeirləri və poemaları ona oxucu rəğbəti qazandırıb. Sədaqətin şeirlərinin vurğunları arasında onun neçə-neçə şeirini əzbər deyən pərəstişkarlarını tanıyaram. Həm Azərbaycan, həm də ləzgi dillərində eyni sənətkarlıqla yazan şairin özünəməxsus poetik dünyası var. Onun 30-dan çox şeirinə müxtəlif bəstəkarlar mahnı bəstələyiblər. S.Kərimovanın azərbaycanca “Qərib quşun nəğməsi” kitabının çapdan çıxması xəbəri oxucular tərəfindən böyük maraqla qarşılanmış, mətbuat səhifələrində onlarca resenziya çap olunmuşdur. Müəlliflər kitabı şairin uğuru kimi dəyərləndirmiş, bir sıra bəstəkarlar onun şeirlərə mahnılar bəstələmişlər. Azərbaycanın istedadlı bəstəkarı Sevinc Məmməd qızı isə həmin kitabdakı şeirlərdən təsirlənərək oradakı 20-dən artıq mətnə mahnı yazmışdır.

Sədaqət Kərimovanın ləzgi dilində ilk kitabı olan, “Ləzginka çal” adı ilə 1995-ci ildə “Azərbaycan” nəşriyyatında çapdan çıxmış toplu da müəllifinə uğur gətirmişdir.

Müəllifin nəsrindən danışarkən onun bir sıra sənətkarlıq xüsusiyyətlərini qeyd etməmək mümkün deyil. İlk növbədə yazıçının təhkiyə üsulundan danışmaq istəyirəm. Sədaqət ilk cümlələrindən oxucunu öz cazibəsinə sala bilir. Yazıçıda oxucunu maraqlandırmaq, həyəcanlandırmaq və intizarda saxlamaq məharəti var. Onun əsərləri elə başlanır ki, ardını oxumamaq mümkün olmur. Novella janrının elementlərini özündə ehtiva edən bu əsərlərdə





bir qayda olaraq göz yaşı gülüşə, kədər sevincə qarışır. Həyəcanlı süjetlər, gözlənilməz məqamlar, kəskin kulminasiya nöqtələri, təsirli sonluqlar... Bunlar Sədaqətin nəsr əsərlərinin məziyyətləridir. Onların tərbiyəvi əhəmiyyəti ayrıca mövzudur. İnsan mənəviyyatının dərinliklərinə nüfuz etməyi, insan qəlbinin ən incə tellərini dilləndirməyi bacaran, orada baş verən təzadlı prosesləri bütün incəlikləri ilə göstərib oxucuları düşündürməyi öz vəzifə borcu hesab edən müəllif, təkcə nəql edən deyil, qəhrəmanlarının bütün ağrı-acılarını onlarla bərabər yaşayan, haqqında söhbət gedən hadisələrin iştirakçısı təsiri bağışlayır. Onun qəhrəmanları, yaratdığı obrazlar o qədər canlı, elə təbiidir ki, sanki həmişə yanımızda olublar. Baş qəhrəmanların mənəvi dünyalarının zənginliyi, onların neqativ hallara qarşı barışmaz mövqeyi, həyatın çətin anlarında göstərdikləri mətinlik, nümayiş etdirdikləri böyük iradə oxucuya həyat dərsi verir, onu mübariz olmağa, həyatın çətin dönüşlərində ruhdan düşməməyə çağırır. Maraqlıdır ki, oxucuların əksəriyyəti onun əsərlərindəki hadisələri həqiqət kimi qəbul edir, onun qəhrəmanlarında isə yazıçını görürlər.

Onun evində böyük qovluqların yığıldığı bir şkaf var. Bir dəfə Sədaqət onları mənə göstərdi. Minlərlə məktub orada səliqə ilə yığılmışdı. “Məni bu məktublar yaşadır. Onlar olmasa, mən yaza bilmərəm. Hər məktubun arxasında məni sevən, anlayan, hisslərimlə yaşayan, həyəcanlarımı bölüşən bir insan taleyi var. Onlar mənim əsl dostlarımdır”, - deyib, o, mənə həmin qovluqlarla tanış olmağa icazə verdi. Oxucu minnətdarlıqları ilə dolu bu məktubları həyəcansız oxumaq mümkün deyildi. Onlarla tanış olana qədər mən Sədaqətin bu qədər sevildiyini, onun əsərlərini incəliklərinə qədər təhlil edib öz fikirlərini əsl tədqiqatçı kimi açan bu qədər kamil oxucuların olduğunu olduğunu ağlıma gətirmirdim. Həmin məktublar mənə Sədaqəti daha yaxından tanıtdı.

Hələ uşaqlıqdan bədii yaradıcılıqla məşğul olan Sədaqət Kərimovanın şeir və hekayələri orta məktəbin 7-ci sinfindən etibarən “Azərbaycan pioneri”, “Azərbaycan gəncləri”, “Qızıl Qusar” və başqa qəzetlərdə, respublikada nəşr olunan bir sıra jurnallarda və ədəbi almanaxlarda çap olunmuşdur. Lakin ilk nəsr kitabı uzun illər sonra, 1985-ci ildə “Səssiz haray” adı ilə “Yazıçı”

nəşriyyatında işıq üzü görmüşdür. 15 min nüsxə tirajla çap olunan həmin kitab iki həftə ərzində satılıb qurtarmış, müəllifinə böyük uğur gətirmişdir. Yazıçının kitaba daxil edilmiş doqquz hekayəsində də digər yazılarında olduğu kimi insan mənəviyyatı və əxlaq probleminə önəm verməsi ədəbi tənqidin diqqətini cəlb etmiş, müxtəlif qəzet və jurnallarda bununla bağlı onlarca məqalə dərc olunmuşdur. Onun 1989-cu ildə “Yazıçı” nəşriyyatında çapdan çıxmış “Bir yaz gecəsi” adlı ikinci nəsr kitabı da oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır. “Gəzəyən” povestindən və səkkiz hekayədən ibarət olan həmin kitab ədəbi tənqidin diqqətini cəlb etmiş, onunla bağlı respublika mətbuatında çoxlu sayda resenziya dərc edilmişdir.

Müəllifin dörd il sonra nəşr olunmuş “Hal” kitabını isə Azərbaycan ədəbi mühitində əlamətdar hadisə adlandırmaq olar. Onun haqqında, ələlxüsus kitaba daxil olan eyniadlı romanla bağlı mətbuat səhifələrində qızğın müzakirələr getmiş, olduqca maraqlı oxucu rəyləri, tənqidçi qeydləri çap olunmuşdur. Müəlliflərin yekdil fikri bu olmuşdur ki, “Hal” bənzərsiz əsərdir.

Yazıçıya şöhrət gətirən kitablar arasında “Qürub” adlı povest və romanlar toplusu da xüsusi yer tutur. Bu kitaba müəllifin “Ayı yağışı” romanı, “Ağ qəm”, “Günah”, “Gəzəyən”, “Qürub” povestləri daxil edilmişdir. Həmin kitabın uğurları haqqında danışarkən belə bir faktı xatırlatmağa dəyər ki, onunla bağlı respublikanın müxtəlif mətbuat orqanlarında 54 resenziya çap olunmuşdur.

Jurnalist kimi Sədaqət Kərimovanın yaradıcılığından danışanda onun peşəkarlığı, yüksək səviyyəsi, mövzu seçimi, onlara yanaşma tərzi, yazı üslubu diqqət çəkir. Onun klassik jurnalistikanın oçerk, esse, zarisovka, felyeton kimi janrlarına tez-tez müraciət etməsi günün nəbzini tutmaq məharətindən irəli gəlir. Lakin bir cəhəti xüsusi qeyd etmək lazımdır ki, mənəviyyat mövzusu, əxlaq, tərbiyə məsələləri onun yaradıcılığının ana xəttini təşkil edir. Bu mövzuda onun qələmə aldığı məqalələri Azərbaycan jurnalistikasının inciləri adlandırmaq olar. Sədaqət Kərimovanın uşaq evlərindən və qocalar evlərindən hazırladığı silsilə yazılar kəskinliyi, mövzuya yeni yanaşma tərzi, fərqli təhkiyə üsulu ilə oxucuların məhəbbətini qazanmışdır. İctimaiyyətin diqqətinə çat-





dırdığı və müzakirəsinə verdiyi problemlərin ciddiliyi və əhəmiyyətliliyi peşəkar jurnalist imicini qazanmasına səbəb olmuşdur. Ümumiyyətlə, Sədaqət Azərbaycan mətbuatında öz yeri, öz sanbalı olan nümayəndəsi kimi böyük nüfuz sahibidir.

Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almış Sədaqət Kərimova tələbəlik illərinin ilk günlərindən müstəqil jurnalist kimi fəaliyyətə başlamış, özünəməxsus yazı üslubu, rəvan dili və fərqli dəst-xətti ilə seçilmişdir. Zəhmətkeşliyinə və maraqlı yazı tərzinə görə hələ I kursdan “Azərbaycan gəncləri” qəzetinə ştatdankənar müxbir təyin olunan gənc qız respublikamızın ən böyük tirajla nəşr olunan bu mətbu orqanında bir-birindən maraqlı məqalə və oçerklərlə çıxış etməyə başlamışdır. Mənəviyyat mövzusunda yazdığı silsilə məqalələr isə ona şöhrət qazandırmışdır.

Zəhmətkeşliyi sayəsində, gənc olmasına baxmayaraq imzası ilə tanındığına, artıq təcrübəli jurnalist kimi yetişdiyinə görə o, universitetin beşinci kursunda oxuyarkən dövrünün aparıcı mətbu orqanlarından olan, Azərbaycan KP MK-nın “Sovet kəndi” qəzetinə müxbir vəzifəsinə dəvət olunmuşdur. 17 il fasiləsiz olaraq həmin qəzetdə çalışmış Sədaqət Kərimova eyni zamanda Azərbaycan Dövlət Universitetinin Fəlsəfə kafedrasının aspiranturasında təhsil almışdır. Gənclik illərindən çoxşaxəli yaradıcılığı ilə fərqlənən Sədaqət Kərimova qəzetçiliklə yanaşı, radio və televiziya jurnalisti də olmuşdur. Uzun illər Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində “Gənclik” və “Səadət” müəllif proqramları ilə əməkdaşlıq etmiş, maraqlı süjetlərlə efirə çıxmışdır.

1991-ci ildə Azərbaycanın ilk parlament qəzeti olan “Həyat” nəşrə başlayanda Sədaqət Kərimova təcrübəli jurnalist kimi oraya işə dəvət olunmuş, məktublar, ictimai rəy və zona müxbirləri şöbəsinə müdir təyin olunmuşdur. Sonradan o, “Azərbaycan” qəzetində mədəniyyət şöbəsinə rəhbərlik etmiş, Azərbaycan və rus dillərində nəşr edilən beynəlxalq “Günay” qəzetinin baş redaktorunun müavini kimi fəaliyyət göstərmişdir. 1997-ci ildən “Samur” qəzetinin baş redaktoru olan Sədaqət Kərimova Azərbaycan, rus və ləzgi dillərində çap olunmuş 8 mindən artıq məqa-

lə, oçerk, korrespondensiya, zarisovka, esse və felyetonların müəllifidir.

Jurnalistika sahəsində qazandığı uğurlara görə o, hələ sovet dövründə Azərbaycan Jurnalistlər İttifaqının “Qızıl qələm” mükafatı ilə təltif olunmuşdur. Kəndin sosial və iqtisadi problemləri ilə bağlı “Sovet kəndi” qəzetində dərc olunmuş oçerklərinə görə 1984-cü ildə layiq görüldüyü bu mükafatdan sonra o, bir sıra mükafatlarla təltif olunmuşdur.

Ləzgi oxucularının Sədaqət Kərimova ilə tanışlığı ana dilində qələmə alınmış “Lezginka çal”, “Soyuq günəş”, “Yenə bir bahar” “Köklənsin dünyamız “Ləzginka” üstə”, “Dil haqqında ballada”, “İtən gündəlik” və sair nəzm və nəsr kitabları ilə olmuşdur. Onun şeir və poemaları, hekayə, povest və romanları sevilə-sevilə oxunur. Təsadüfi deyildir ki, ləzgi ədəbiyyatının və incəsənətinin inkişafında göstərdiyi xidmətlərinə görə 2009-cu ildə S.Kərimova Dağıstan Respublikasının “Şarvili” mükafatı ilə təltif olunmuşdur.

Sədaqətin “Qusar, qusarlılar. КцIар, кцIарвияр” adlı ensiklopedik toplusundan ayrıca danışmaq istəyirəm. 2011-ci ildə müəllifin Azərbaycan və ləzgi dillərində qələmə aldıgı, onun 13 illik axtarışlarının nəticəsi olan 700 səhifəlik həmin kitab ayrıca bir rayona həsr edilmiş ensiklopedik kitablardan bir sıra məziyyətləri ilə seçilir. Müəllifin tarixçi, dilçi, etnoqraf, publisist, fotoqraf kimi tədqiqatları maraqlıdır. Vahid süjet xətti ilə birləşən fəsillər informativ xarakteri ilə səciyyələnsə də onlarda oçerk janrının elementlərindən də geniş istifadə olunmuşdur. Rəsmi və bədii üslubu peşəkarlıqla birləşdirmiş müəllif maraqlı və yaddaqalan bir kitab ərsəyə gətirmişdir. İki dildə qələmə alınmış kitab ləzgi-Azərbaycan və Azərbaycan-ləzgi dilləri sahəsində çalışan peşəkarlar üçün əsl tapıntıdır. Müəllif hər iki dilin imkanlarından sənətkarlıqla istifadə edərək, qiymətli bir əsər yarada bilmişdir.

2012-ci ildə Mahaçqalanın “Elm” nəşriyyatı tərəfindən S.Kərimovanın ləzgi dilində çap olunmuş “Dil haqqında ballada” adlı seçilmiş şeirlərdən və poemalardan ibarət toplusu Dağıstan ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdır. Həmin ilin aprelində Mahaçqalanın Mərkəzi Kitaxanasında keçirilmiş kitabın geniş təqdimatı yaxşı yadımdadır. Kitabxanın böyük zalı ağzına kimi dolu idi. Orada olanlar etiraf edirdilər ki, son illər bu zal ilk dəfə bu qədər adamı bir araya yığmışdı. Sədaqətin yaradıcılığı ilə maraqlananların sayı-hesabı yox idi. Onların arasında Dağıstanın tanınmış söz adamları çoxluq təşkil edirdi. S.Kərimovanın yaradıcılığı haqqında fikirlər söyləyən natiqlər yeni kitabın Dağıstan oxucuları üçün böyük hədiyyə olduğunu qeyd edərək onun Azərbaycan-Dağıstan ədəbi əlaqələrinin möhkəmləndirilməsində əhəmiyyətini vurğuladılar.





Müəllifin bitib-tükənməyən yaradıcılıq eşqi qibtə doğurur. Bu fədakar qələm sahibi rahatlıq bilmədən gecə-gündüz çalışır. Onun gərgin əməyinin nəticəsi olaraq 2012-ci ildən bu yana Azərbaycan dilində roman və povestlərdən ibarət “Ağ qəm” kitabı, ləzgi dilində qələmə alınmış, roman, povest və hekayələrdən ibarət “İtən gündəlik” kitabı çap olunmuşdur.

Onun bir sıra əsərləri Səyavuş Məmmədzadə, Mayis Vida, Nailə Bannayeva, Aleksandr Rodionov və Boris Kutukov tərəfindən Azərbaycan və ləzgi dillərindən rus dilinə tərcümə olunaraq “Blajnaya”, “Za semyu qorami”, “Medvejiy dojd” adları ilə çapdan çıxmışdır.

Bir bəstəkar kimi Sədaqətin istedadı onun mahnı yaradıcılığında üzə çıxır. İndiyədək 100-dən çox mahnısı müğənnilər tərəfindən ifa olunan Sədaqətin əsərlərinin ən gözəl ifaçıları onun 1996-cı ildə yaratdığı və bu günə kimi fəaliyyət göstərən “Suvar” Ləzgi Mahnı və Rəqs Ansamblının solistləridir. S.Kərimova bu vaxta kimi 5 musiqi albomu buraxmışdır.

Həmçinin ləzgi xalqının mədəniyyətinə və etnoqrafiyasına həsr olunan, 2004 və 2008-ci illərdə lentə alınan, Sədaqət Kərimovanın ssenari müəllifi və rejissoru olduğu iki saatlıq “Mənim doğma elim” adlı musiqili-sənədli filmləri haqqında danışmaq da məqsədəuyğun olardı. Filmləri müəllifin musiqisi müşayiət edir. Bu filmlər ləzgi dilində həmin formatda və üslubda yaradılmış ilk layihə kimi tarixə düşmüş, bu günə kimi İnternetdə ən çox izlənən və yüksək reytinqə malik filmlər kimi tamaşaçı rəğbəti qazanmışdır.

Bir sıra respublika və beynəlxalq festivalların laureatı olan, ləzgi xalqının adət-ənənələrini, mədəniyyətini, folklorunu yaşa-

dan "Suvar" Ləzgi Mahnı və Rəqs Ansamblı da Sədaqət Kərimovanın rəhbərliyi altında fəaliyyət göstərir. Bu kollektivin şöhrəti respublikanın sərhədlərini aşaraq bir sıra xarici ölkələrdə də tanınmışdır. Kollektiv bir sıra ölkələrdə, o cümlədən Türkiyənin Ankara şəhərində keçirilən Beynəlxalq Anadolu Mədəniyyət və Sənət Festivalında Azərbaycanı təmsil etmişdir. 2011-ci ildə Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sərəncamı ilə "Suvar" Ləzgi Mahnı və Rəqs Ansamblına "Xalq kollektivi" fəxri adı verilmişdir.

Sədaqət Kərimovanın yaradıcılığına Azərbaycanda böyük maraq olduğu aydın görünür. Onun ədəbi irsinin mədəni-maarif müəssisələrində təbliği məqsədi ilə 2003-cü ildə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası "Sədaqət Kərimova – 50" adlı metodik vəsait buraxmışdır. Həmin il görkəmli yazıçı-jurnalist Müzəffər Məlikməmmədov S.Kərimova haqqında "Sədaqət" adlı sənədli-publisistik kitab nəşr etdirmiş, burada onun həyat və yaradıcılığı haqqında maraqlı məlumatlar vermiş, yaradıcılığını geniş təhlil etmişdir. 2013-cü ildə isə yazıçının 60 illik yubileyi ərəfəsində Azərbaycan Respublikası Nobel İnformasiya Mərkəzinin sədri Bəybala Ələsgərovun tərtib etdiyi "Sədaqət Kərimovanın həyat və yaradıcılığı" adlı kitab nəşr olunmuş, burada yazıçının yaradıcılığı haqqında biblioqrafik məlumatlar verilmişdir.

Sədaqət Kərimovanın fəal həyat mövqeyi, Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunda iştirakı da maraqlıdır. O, ötən əsrin 90-cı illərində Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin azsaylı xalqlar komissiyasının sədri kimi ictimai fəaliyyət göstərmişdir. 1994-cü ilin avqust ayının 10-da həmin təşkilatın təşəbbüsü ilə Ermənistan Respublikasının İcevan rayonunda keçirilmiş Azərbaycan və Ermənistan qadınları nümayəndələrinin görüşündə iştirak etmişdir.

1997-ci ildə Dağıstan Dövlət Universitetinin Bakı filialında Dağıstan filologiyası fakültəsinin ləzgi və avar dilləri bölməsinin yaradılmasının təşkilatçılarından biri olmuş, Azərbaycanın ləzgi gənclərindən burada oxumağa 10 nəfəri cəlb etmiş S.Kərimova beş il bu təhsil ocağında ləzgi dili və ədəbiyyatı fənnini tədris etmişdir.





Azərbaycan milli mətbuatının 130 illiyi münasibətilə jurnalistikanın inkişafındakı xidmətlərinə görə 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Sədaqət Kərimovaya "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi ona dövlət tərəfindən göstərilən diqqətin bariz nümunəsidir.

Sədaqət Kərimova 1997-ci ildən bu günə kimi fasiləsiz olaraq "Samur" Ləzgi Milli Mərkəzinin orqanı olan, üç dildə - Azərbaycan, ləzgi və rus dillərində nəşr olunan eyniadlı qəzetin baş redaktorudur. Onun səyləri sayəsində bu gün qəzet respublikamızda öz sabit oxucuları və ciddi dəst-xətti olan mətbu orqan kimi tanınır. 2012-ci ildə Bakı Dövlət Musiqi Akademiyasında qəzetin 20 illik yubileyinin təntənəli şəkildə qeyd olunması onun uzunömürlü və sabitqədəm fəaliyyətindən xəbər verir. Sevindirici haldır ki, qəzetin təkcə Azərbaycanda və Dağıstanda deyil, həmçinin dünyanın müxtəlif ölkələrində daimi oxucuları var. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə ləzgi dilində çatdırılmasında bu qəzetin rolu böyükdür.

Təbiət vurğunu olan və bu xüsusiyyətini bədii əsərlərində də büruzə verən Sədaqət Kərimova həm də həvəskar alpinistdir. Respublikamızın ərazisindəki bir sıra yüksəklikləri fəth edən, 2004-cü ildə isə "Samur" qəzetinin şərəfinə keçirilmiş, altı nəfərdən ibarət ekspedisiya ilə birgə Qusar rayonunun ərazisində yerləşən Şahdağın dəniz səviyyəsindən 4243 metr hündürlükdə olan ən yüksək zirvəsini fəth etmişdir. Mən Sədaqətə - Şahdağ kimi vüqarlı və qürurlu el qızımıza bu böyük məhəbbətinə rəğmən həyat və yaradıcılığının bütün sahələrində daha yüksək zirvələri fəth etməyi arzulayıram.

**Faida Qəniyeva,**
*Dağıstan Dövlət Universiteti*
*Dağıstan dilləri fakültəsinin müəllimi,*
*filologiya elmləri doktoru*

## Sədaqət Kərimovanın həyat və fəaliyyətinin əsas tarixləri

**1953** - Sədaqət Qayınbəy qızı Kərimova mart ayının 30-da Qusar rayonunun Qələcuq kəndində, ziyalı ailəsində anadan olmuşdur.

**1959** - Qusar şəhər ibtidai məktəbinin birinci sinfinə getmişdir.

**1966** - "Vətənim" adlı ilk şeiri Qusar rayonunda çıxan "Qızıl Qusar" qəzetində dərc edilmişdir;
- "Qırılmış qanad" adlı ilk hekayəsi "Azərbaycan pioneri" qəzetində dərc edilmişdir;
- "Gənclər iməcilik keçirdilər" adlı ilk məqaləsi "Azərbaycan gəncləri" qəzetində dərc edilmişdir.

**1968** - "Azərbaycan gəncləri" qəzetinin respublika məktəbliləri arasında keçirdiyi "Anam, doğma Azərbaycan" mövzusunda inşa yazı müsabiqəsinin qalibi olmuşdur.

**1969** - Qusar şəhər 1 saylı orta məktəbini bitirmişdir;
- Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdur;
- "Azərbaycan gəncləri" qəzetinin ştatdankənar müxbiri təyin olunmuşdur;
- Noyabrın 17-də Azərbaycan Dövlət Opera və Balet Teatrında Azərbaycan EA, Yazıçılar İttifaqı və Mədəniyyət Nazirliyinin görkəmli Azərbaycan yazıçısı M.S.Ordubadinin anadan olmasının 100 illik yubileyinə həsr etdikləri yubiley gecəsində respublika gəncləri adından çıxış etmişdir.





**1970** - "Azərbaycan gəncləri" qəzetində "Tərbiyə mövzusunda" rubrikası altında oçerklər silsiləsindən ilk oçerki dərc olunmuşdur;
- Jurnalistika fakültəsindən Azərbaycan Dövlət Universiteti komsomol komitəsinin büro üzvü seçilmişdir.

**1972** - Fevralın 29-da Bakı şəhər komsomol təşkilatının 44-cü konfransına Azərbaycan Dövlət Universitetindən nümayəndə seçilmişdir.

**1973** - Fevralın 25-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində keçirilmiş SSRİ Tələbə Elmi Cəmiyyətlərinin Ümumittifaq konfransında Azərbaycan milli mətbuatının ənənələri mövzusunda məruzə ilə çıxış etmişdir.

**1974** - Hələ universitetin beşinci kurs tələbəsi ikən Azərbaycan KP MK-nın "Sovet kəndi" qəzetinə müxbir vəzifəsinə işə götürülmüşdür;
- Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir.

**1975-1985** - Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin "Gənclik" proqramında müxtəlif verilişlərlə çıxış etmişdir.

**1977** - Azərbaycan KP MK yanında Marksizm-Leninizm Universitetinə daxil olmuş, 1978-ci ildə oranı bitirmişdir.

**1978-1981** - Dövlət Televiziyasının "Səadət" proqramında müxtəlif süjetlərlə çıxış etmişdir.

**1980-1982** - Azərbaycan Dövlət Universiteti fəlsəfə kafedrasının aspiranturasında təhsil almışdır.

**1984** - Kəndin sosial və iqtisadi problemləri ilə bağlı "Sovet kəndi" qəzetində dərc olunmuş oçerklərinə görə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatı ilə təltif olunmuşdur.

**1985** - "Səssiz haray" adlı ilk nəsr kitabı "Yazıçı" nəşriyyatında 15 min nüsxə tirajla işıq üzü görmüşdür.

**1989** - "Bir yaz gecəsi" adlı nəsr kitabı "Yazıçı" nəşriyyatında çapdan çıxmışdır.

**1991** - "Qərib quşun nəğməsi" adlı şeirlər kitabı Azərnəşrdə çapdan çıxmışdır. Kitabdakı 20-dən çox şeirə bəstəkarlar tərəfindən mahnılar bəstələnmişdir;
- Azərbaycan Respublikası Ali Sovetinin orqanı olan "Həyat" qəzetinin ilk sayından burada Məktublar, ictimai rəy və zona müxbirləri şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

**1992** - "Həyat" qəzetinin adı dəyişdirilərək "Azərbaycan" olanda qəzetin Mədəniyyət





və publisistika şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur;
- Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin azsaylı xalqlar komissiyasının sədri seçilmişdir.

**1993** - Jurnalistika sahəsində qazandığı uğurlara görə Azərbaycan Jurnalistlər Birliyinin Həsən bəy Zərdabi adına mükafatı ilə təltif olunmuşdur;
- Roman, povest və hekayələrdən ibarət "Hal" adlı kitabı "Azərbaycan" nəşriyyatında işıq üzü görmüşdür;
- Avqustun 5-də Çexiya Respublikasının paytaxtı Praqa şəhərinin yaxınlığındakı Liblitsa kəndindəki qədim qəsrdə Helsinki Vətəndaş Assambleyası qadın komissiyasının müharibə və qadın zorakılığı probleminə həsr etdiyi, ərazisində müharibə gedən ölkələrin nümayəndələrinin iştirak etdiyi konfransda çıxış etmişdir.

**1994** - Bəstələdiyi "Ləzginka çal, qardaşım" adlı ilk mahnısı ifa olunmuşdur;
- Azərbaycan və rus dillərində nəşr olunan beynəlxalq "Günay" qəzetinin baş redaktorunun birinci müavini vəzifəsinə təyin olunmuşdur.

**1995** - Azərbaycandan Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərindəki "Meridian" Beynəlxalq Mərkəzinə, demokratik seçkilərin keçirilməsi təcrübəsini öyrənməyə göndərilmiş, burada bir ay təhsil almış 10 nəfər gənc siyasətçidən biri S.Kərimova olmuşdur;

- Noyabrda 65 saylı Qusar seçki dairəsi üzrə Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə iştirak etmişdir;
- Ləzgi dilində "Ləzginka çal, qardaşım" adlı ilk kitabı "Azərbaycan" nəşriyyatında işıq üzü görmüşdür;
- Publisistika sahəsindəki uğurlarına görə Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqının Məhsəti Gəncəvi adına mükafatı ilə təltif edilmışdir.

**1996** - Bakıda "Suvar" instrumental ansamblını yaratmış, onun bədii rəhbəri kimi fəaliyyətə başlamışdır.

**1997** - "Samur" Ləzgi Milli Mərkəzinin orqanı olan, 1992-ci ildən üç dildə - Azərbaycan, ləzgi və rus dillərində nəşr olunan "Samur" qəzetinin baş redaktoru vəzifəsinə təyin olunmuşdur.

**1998** - Ləzgi dilində şeirlərdən və poemalardan ibarət "Köklənsin dünyamız Ləzginka üstə" adlı kitabı "Ozan" nəşriyyatında işıq üzü görmüşdür;
- Günün nəbzini tutan aktual məqalələrinə görə Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqının Xan qızı Natəvan adına mükafatı ilə təltif edilmışdir.

**1999** - Bakıda Dağıstan Dövlət Universitetinin Bakı filialında Dağıstan filologiyası fakültəsinin ləzgi və avar dilləri bölməsinin yaradılmasının təşkilatçılarından biri olmuşdur;





- Dağıstan Dövlət Universiteti Bakı filialına Dağıstan filologiyası kafedrasının ləzgi dili və ədəbiyyatı müəllimi vəzifəsinə təyin olunmuşdur.

**2000** - 65 saylı Qusar seçki dairəsi üzrə Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə iştirak etmişdir.

**2007** - Azərbaycan dilində "Qürub" adlı povest və romanlar toplusu "Nurlan" nəşriyyatında çap olunmuşdur;
- LİNKS Beynəlxalq Təşkilatının Gürcüstanın Bakuriani şəhərində keçirilmiş konfransında "Qafqazda milli azlıqlar şəbəkəsi" təşəbbüs qrupunun üzvü seçilmışdir;
- Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti Sədaqət Kərimovanın "Qürub" kitabının təqdimatını keçirmişdir.

**2001** - Roman, povest və hekayələri rus dilinə tərcümə olunaraq "Blajnaya" adı ilə ayrıca kitab şəklində "Azərbaycan" nəşriyyatında çap olunmuşdur.

**2002** - Bakı şəhərində "Ləzginka" adlı rəqs məktəbini yaratmışdır.

**2003** - Xalqlar arasında tolerantlıq ideyalarını təbliğ etdiyinə görə Helsinki Vətəndaş Assambleyası AMK-nin "Sülh" mükafatı ilə təltif olunmuşdur;
- "Suvar" İnstrumental Ansamblını genişləndirərək onu "Suvar" Ləzgi Mahnı və Rəqs Ansamblına çevirmişdir.

- Ləzgi dilində povest və hekayələrdən ibarət "Къайи ргъ" ("Soyuq günəş") adlı kitabı "Azərbaycan" nəşriyyatında işıq üzü görmüşdür;
- Ləzgi dilində şeirlərdən ibarət "Мад са гатфар" ("Daha bir bahar") adlı kitabı "Ziya" nəşriyyatında işıq üzü görmüşdür;
- "Suvar" Ansamblının "Mənim doğma elim" adlı ilk musiqili albomu buraxılmışdır.

**2004**

- Moskvanın Millətlər Evində Sədaqət Kərimovanın yaradıcılığına həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir;
- "Suvar" ansamblının "Ləzginka çal" adlı ikinci albomu buraxılmışdır;
- Moskvanın Kreml sarayında ləzgilərin bahar bayramına həsr olunmuş təntənəli konsertin ssenarisinin müəllifi və iki aparıcısından biri olmuşdur. Həmin konsertdə onun rəhbərlik etdiyi "Suvar" ansamblı da çıxış etmişdir.

**2005**

- İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Sədaqət Kərimovaya "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir;
- Rus dilində şeirlərdən ibarət "За семью горами" ("Yeddi dağın arxasında") adlı kitabı "Ziya-Nurlan" nəşriyyatında işıq üzü görmüşdür;
- Ssenari müəllifi və rejissoru olduğu "Mənim doğma elim - I" adlı 2 saatlıq musiqili-sənədli filmini ərsəyə gətirmişdir.





**2006**

- Ləzgi dilində uşaqlar üçün yazılmış "Рагъ хъуьрезва" ("Günəş gülür") adlı kitabı "Ziya - Nurlan" nəşriyyatında çapdan çıxmışdır.

**2007**

- Ssenari müəllifi və rejissoru olduğu "Mənim doğma elim – II" adlı 2 saatlıq musiqili-sənədli filmini ərsəyə gətirmişdir.
- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Sədaqət Kərimovanın "Kas" pyesini səhnələşdirməyi Qusar Dövlət Ləzgi Dram Teatrına tövsiyə etmişdir;
- "Suvar" ansamblının "Damdan-dama" adlı üçüncü albomu buraxılmışdır.

**2008**

- Azərbaycan Dövlət Akademik Dram Teatrının səhnəsində Sədaqət Kərimovanın rəhbərlik etdiyi "Suvar" ansamblı ləzgilərin qədim adət və ənənələrinə həsr olunmuş "Şarvilinin toyu" adlı konsert-tamaşa göstərmişdir.
- Azərbaycan şairləri Ramiz Qusarçaylının və Xuraman Vəfanın bir sıra şeirlərini ləzgi dilinə çevirmişdir.
- "Suvar" ansamblının "Şarvilinin toyu" adlı dördüncü albomu buraxılmışdır.

**2009**

- Tatarıstanın paytaxtı Kazan şəhərində Rusiya həmvətənlərinin qurultayında Azərbaycanın nümayəndəsi kimi iştirak etmiş və məruzə ilə çıxış etmişdir;
- Azərbaycan şairlərindən Əhməd Cavadın, Səməd Vurğunun, Hüseyn Arifin, Rüzgar Əfəndiyevanın, Hidayət Orucovun və başqalarının bir sıra şeirlərini ləzgi dilinə tərcümə etmişdir;

- Ləzgi ədəbiyyatının və incəsənətinin inkişafında göstərdiyi xidmətlərinə görə Dağıstan Respublikasının "Şarvili" mükafatı ilə təltif olunmuşdur.

**2011**

- Azərbaycan və ləzgi dillərində qələmə aldığı, müəllifin 13 illik axtarışlarının nəticəsi olan 700 səhifəlik "Qusar, qusarlılar. КцIар, кцIарвияр" ensiklopedik toplusu "Ziya" nəşriyyatında işıq üzü görmüşdür;
- Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sərəncamı ilə Sədaqət Kərimovanın rəhbərlik etdiyi "Suvar" Ləzgi Mahnı və Rəqs Ansamblına "Xalq kollektivi" fəxri adı verilmişdir.

**2012**

- "Suvar" ansamblının "Anan qurban" adlı beşinci albomu buraxılmışdır;
- Baş redaktoru olduğu "Samur" qəzetinin 20 illik yubileyi Azərbaycan Dövlət Musiqi Akademiyasında təntənəli şəkildə qeyd olunmuşdur;
- "Samur" qəzetinin 20 illik yubileyi ilə əlaqədar olaraq, çoxillik jurnalist əməyinə və xalq qarşısında xidmətlərinə görə Dağıstan Respub-likası Hökumətinin "Fəxri fərmanı" ilə təltif edilmişdir;
- Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında S.Kərimovanın rəhbərlik etdiyi "Suvar" ansamblının 15 illik yubileyi təntənəli şəkildə qeyd olunmuşdur;
- Azərbaycan dilində "Ayı yağışı" adlı roman və povestlərdən ibarət kitabı "Ziya" nəşriyyatında rus dilində işıq üzü görmüşdür;





- "Dil haqqında ballada" adlı şeçilmiş şeir və poemalardan ibarət kitabı Mahaçqalanın "Elm" nəşriyyatında ləzgi dilində işiq üzü görmüşdür;
- Mahaçqala şəhərindəki R.Həmzətov adına Mərkəzi Kitabxanada "Dil haqqında ballada" kitabının təqdimatı olmuşdur;
- Dağıstanın avar şairi Baxu-Mesedu Rasulo-vanın şeirlərini ləzgi dilinə çevirmişdir.

**2013**

- Azərbaycan dilində povest və romanlardan ibarət "Ağ qəm" adlı kitabı "Azərbaycan" nəşriyyatında çapdan çıxmışdır;
- "Zərdabi" nəşriyyatında ləzgi dilində povest, roman və hekayələrdən ibarət "İtən gündəlik" adlı kitabı nəşr olunmuşdur;
- M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında 60 illik yubileyi təntənəli şəkildə qeyd olunmuşdur.

**2014**

- "Qanun" nəşriyyatında Müzəffər Məlikməmmədovla birgə hazırladığı "Ləzgilər" adlı ensiklopedik məlumat kitabı Azərbaycan, rus və ingilis dillərində işıq üzü görmüşdür.

# Sədaqət Kərimovanın kitablarından sətirlər

## İnsan olmaq istedadı

*Qocaları başa düşmək, onlara güzəştə getməyi bacarmaq, onlarla ürək söhbəti etməyə, könüllərini almağa vaxt tapmaq vacibdir. Axı ömrün qürub çağında adam bunlara daha çox ehtiyac duyur. İlləri arxada qoymuş, saçlarına dən düşmüş, payızda ağacdan qopmağa hazırlaşan son yarpaq kimi kövrək olan yaşlı adamlar diqqətə, qayğıya daha çox tamarzı olur, xoş söz, şirin iltifat üçün darıxırlar. Qocalar üçün təklikdən, yalqızlıqdan əzablı heç nə ola bilməz. Unutmayaq ki, qocalıq heç kəsin yanından yel olub ötməyəcək, o, gec-tez hər ömrə qədəm basacaq.*

***

*Yıxılanın qolundan tutmaq, acı doyurmaq, qonağa son tikəni vermək, böyük-kiçik bilmək ən adi insani borclardır. Bunlar bayramdan-bayrama yox, hər gün, hər saat yadımızda olmalıdır.*

***

*Sənin mərhəmətinə ehtiyacı olan bir insanın, əl uzadıb ayağa qaldırmağa qadir olduğun birisinin yanından əgər etinasızlıqla keçib gedə bilirsənsə, qəlbinin müalicəyə ehtiyacı var. Ürəkdə xeyirxahlıq hissinin, mərhəmət duyğusunun sönməsi faciədir, bədbəxtlikdir.*

***

*İnsanın ilk və ən böyük müəllimi onun anasıdır. Ananın öz övladının tərbiyəsinə verdiyini dünyanın heç bir müəllimi verə bilməz.*

***

*Yalnız güclülər, insan olmaq istedadına qabil adamlar*





*sınaqlardan qalib çıxırlar. Vəfa sınağından, sədaqət sınağından, Vətənə məhəbbət sınağından.*

***

*Övladları kor-koranə sevmək əvəzinə, onların sabahı, gələcəyi üçün düsünmək, onları ailə, qohum-əqrəba, cəmiyyət uçün xeyirli adamlar kimi yetişdirmək lazımdır.*

***

*Adamlara lazım olmaq, onların köməyinə çatmaq! İnsanın ən gözəl xüsusiyyətlərindən biri budur. Hiss edəndə ki, sən kiməsə gərəksən, kimsə sənə arxadır, kürəyini asanlıqla ona söykəyə bilərsən. Bax, o zaman yaşamaq mənalı, həyat gözəl olur.*

***

*Elə bilməyin ki, sadə adamların mənəvi dünyaları onların həyatları kimi sadədir. Kasıb daxmalarda yaşayan nə qədər zənginlər var! Mən var-dövlət içində yaşayan insanlar tanıyıram ki, onların cılız, dayaz düşüncə tərzlərini, həyata dar çərçivədən baxışlarını görüb sarsılmamaq olmur... Eyni zamanda kasıb insanlar tanıyıram ki, zəngin mənəvi dünyaları, ali insani hisslərə söykənən saf qəlbləri, xeyirxah əməlləri qarşısında riqqətə gəlməmək mümkün deyil.*

***

*Yadların doğmalaşması təəccüblü deyil, bu, adi reallıqdır. Doğmaların yadlaşması isə faciədir. Doğmalar yadlaşırsa, həyatın rəngləri solğunlaşır, onun gözəllikləri azalır, insanın sevinmək, fərəhlənmək, dünyadan zövq almaq hissləri korşalır. Həyat doğma, əziz adamlarla gözəldir. Onları itirmək hər şeyi itirmək deməkdir.*

***

*Yersiz qürurun və saxta təkəbbürün insan münasibətlərinə vurduğu ziyanı heç nə ilə müqayisə etmək mümkün deyil. İnsana səmimiyyət qədər heç nə yaraşmır. Səmimi insan geniş ürəkli olub, güzəştə getməyi bacarır. Güzəştə getməyi bacarmaq yersiz*

*və bezdirici mübahisələrdən, qanqaraldıcı söhbətlərdən, umu-küsülərdən uzaq olmaq deməkdir.*

***

*Öz nəslinin tarixini bilməyən, yeri gələndə onunla öyünməyi bacarmayan yeniyetmələr öz ölkələrinin tarixi ilə fərx etməyi bacararlarmı?! Öz nəslinin ulularını tanımayanlar o qədərdir! Bu bir yana, tanımaq istəməmələrinin sirri nədədir görəsən? Bu biganəliyin səbəblərini axtarmağa çalışıram.*

***

*Mənim üçün var-dövlət məfhumundan yüksəkdə dostluq, sədaqət, məhəbbət anlayışları durur. Mən fiziki dünyadan çox, mənəvi dünyaya bağlıyam. Elə ona görə də real dünyamıza uyuşa bilmirəm, tay-tuşlarımdan geridə qalıram.*

***

*Okeanın və ya dənizin ortasında qəzaya uğrayan gəmilərin "SOS" siqnalı minlərlə kilometr uzaqdan eşidilir. Amma yanımızda, bizdən azacıq aralıda daha böyük fəlakətlər baş versə də, biz onları eşitmirik – laqeydliyimiz, etinasızlığımız, biganəliyimiz üzündən. Kinofilmlərdəki, seriallardakı qəhrəmanların faciələrinə yanan, günlərlə onların təəssüratları ilə yaşayan adamların çoxu qonşuluqda, küçədə, iş yerində rastlaşdıqları haqsızlıqları elə soyuqqanlılıqla seyr edir ki, bəzən onların real dünyada deyil, virtual aləmdə yaşadıqlarını zənn edirsən.*

***

*Alaq otlarına fikir vermisinizmi? Onları vaxtında təmizləməyəndə becərdiyimiz bağ dönüb cəngəlliyə çevrilə bilər. Bağın bağ olması üçün gərək vaxtaşırı olaraq onu alaqlardan təmizləyəsən. Ürəyimiz də belədir, orada çiçək bitirən, bar yetirən hisslərlə yanaşı, alaq cücərdən hisslər də doğulur: etinasızlıq, biganəlik, laqeydlik kimi. İmkan versən, onlar qol-budaq atıb paxıllığa, sonra ədavətə çevrilə bilər. Bağ-bağatımız kimi qəlbimizə də əl gəzdirməli, orada baş qaldırmaq istəyən alaqları dartıb qopar-*





*malıyıq: qəlb bağımızın çiçək açımını, bar tutumunu qorumaq üçün.*

***

*Övladlarını atmıs anaları günahlandırırıq, düz də edirik. Bəs bu cür atalar niyə ictimai qınağa çəkilmir? Niyə beləlləri haqqında ciddi cəza tədbirləri görülmür? Ailənin şərəfini qorumaq, qadınının qeyrətini, övladlarının qayğısını çəkmək, onları böyüdüb ərsəyə çatdırmaq vəzifəsini unutmuş kişilərin sayı niyə gündən-günə artır?*

***

*Dünyada ən böyük cinayət valideynin öz doğma övladını, ciyərparasını xoşbəxt uşaqlıqdan məhrum etməsidir.*

***

*Bir ürəkaçan təbiət mənzərəsi, bizə xoş duyğular yaşadan gözəl lövhə görəndə sevincimizin həddi-hüdudu olmur. Gözəlliyin yanından hərə bir cür ötür: biri onu görmür, duymur, hiss etmir. Biri heyranlıqla, məftunluqla baxıb keçir. Başqa birisi isə bu gözəlliyi nəinki görür, dərk edir, həm də ona aşiq olur, ürəyində bir nigarançılıq, həyəcan baş qaldırır. Gözəlliyin sabahı üçün narahatlıq keçirir, bu duyğunu başqalarında da oyatmağa çalışır. Heyrətə gəlib, coşub-daşan hisslərini ətrafdakılarla bölüşür. Gözəlliklərdən yalnız zövq almağı yox, onları yaratmağı da bacarmalı olduğumuzu yada salır.*

***

*Uşaqlar ömür boyu valideyn nəvazişinə, ata-ana öyüdünə və qayğısına ehtiyac duyurlar. Onlara həmişə elə gəlir ki, ən çətin məsələləri böyüklər asanlıqla həll edə bilirlər. Ən böyük sirrləri onlarla bölüşmək, ən çıxılmaz anlarda onlardan kömək gözləmək olar. Lakin valideynlər öz doğma övladlarını başa düşməyəndə, onların ürəklərindən xəbərsiz, orada baş verən təbəddülatlara qarşı etinasız olanda yadlıq, uzaqlıq yaranır.*

***

*Münaqişələrə artıq adət etmişik. Ev, həyət, kənd, rayon, ölkə, dünya miqyaslı münaqişələr daha bizi heyrətləndirmir. Bu, bütün səviyyələrdə adi hala çevrilib. Ölkə parlamentarilərindən tutmuş fəhlələrə kimi hamı bir-biri ilə yüksək tonda danışır, bir-birini təhqir etməkdən, şəxsiyyətlərini alçaltmaqdan, ləyaqətlərinə toxunmaqdan çəkinmirlər. Qəribə bir cəzasızlıq hökm sürür. Söyüş, təhqir, təhdid, fiziki cəza vermək halları yağışdan sonra baş qaldıran göbələklər kimi çoxalır. Mənəvi dəyərlər iflasa uğrayır. Əvvəllər qoyulan qadağalar aradan qalxır. Bəşəriyyətin əsrlər boyu formalaşdırdığı əxlaq normaları itirilir. Güvəndiyimiz, öyündüyümüz mənəvi zənginlikləri belə asanlıqla itirsək, nəyimiz qalacaq? İnsan həyatının mənası bu dəyərlərdə deyilmi?*

***

*Xeyirxahlıq vəzifə deyil, bunun üçün maaş verilmir. Savab iş görməyənlər mühakimə edilmir, onlardan cərimə tutulmur. Lakin belə adamlar olmasaydı, həyatın rəngləri solar, yaşamaq mənasız olardı. Əsl xeyriyyə əslində dilsiz-ağızsız olur. O, qapıları kəsdirmir, özü haqqında aləmə car çəkmir. Yaxşılıq etməyə, savab iş görməyə öyrəşənlər onsuz da bu işi görəcəklər.*

***

*Peşmançılığın göz yaşları acı, yarası dərin, ağrısı kəskin olur. Onu yaddan çıxarmaq, izini belə itirmək çətindir! Kaş sonrakı peşmançılığı əvvəlcədən görmək mümkün olaydı. Onda bu qədər sarsıntı, bu qədər əzab da olmazdı.*

***

*Hər cür itkinin yerini doldurmaq olar. Amma mənəviyyatda yaranmış boşluğu aradan qaldırmaq çətindir. Elmə, elmi axtarışlara əhəmiyyət verməmək cəmiyyəti faciələrə gətirib çıxara bilər.*

***

*Ağaclar torpağın şeiriyyətidir. Torpağın da hissləri var. Bu hiss-lər ürəkdə doğulan şeir kimi tumurcuq-tumurcuq, qönçə-qönçə, yarpaq-yarpaq, budaq-budaq göyərir və öz varlığını bildirir. Hər ağac özü ilə bir dünya gətirir. Bu dünya da onunla birgə böyüyür, boy atır. Bu hiss bağbanlara çox tanışdır. Onlar bu "şeiriyyətin" kiçik bir toxumdan möhtəşəm ağaca çevrilməsini izləməyi sevirlər. Onun hər nazına dözməyi, qayğısına qalmağı xoşlayırlar. Bunu yalnız övlad böyüdən ananın duyğuları ilə müqayisə etmək olar.*





***

*Bəzən özgə ağrısı, özgə dərdi insanı öz problemlərindən daha çox incidır, ona əzab verir. Özgə qəlblərin həyəcanlı döyüntülərini duya bilmək, onların içindəki qəmli notları eşidə bilmək hər insana nəsib olmur. Beləlıri biganəlik nədir bilməzlər. Onlar etinasızlıq mərəzinə tutulmamış saf adamlardır. Beləlıri çətin anlarda soruşmadan, sual vermədən sənə yaxınlaşar, hal-əhval tutar, dərdlərini yüngülləşdirməyə çalışar, hiss etdirmədən xeyirxahlıq əllərini uzadarlar. Sonra isə yaralarına məlhəm tapan adamlar kimi qəlb sakitliyinə qovuşarlar.*

***

*Dünyada tənhalıqdan ağır dərd ola bilərmi? Adam hiss edəndə ki, tərk olunub, unudulub, kimsə qapını döyüb içəri girməyəcək, az qalır damarlarındakı qan donsun.*

*Kənddə axşam evlərin birində işıq yanmasa, bundan hamı xəbər tutacaq. Amma şəhərdə bir evin qapısı aylarla bağlı qalsa da, bu, heç kəsi təəccübləndirməyəcək. Elə buna görə də tənha yaşlılar ömürlərinin qalan illərini qocalar evində keçirməyə gedirlər. Yalnız tənha qocalarmı? İmkanları, şəraitləri ola-ola yaşlı, ahıl valideynlərini dövlət himayəsində yaşamağa göndərən nankor övladlar azdırmı?*

## Yaradıcılıq haqqında

*Poeziyanı öz sevgilin kimi sevməsən, onun qulu olmasan, özünü büsbütün ona həsr etməsən, yaxşı şair ola bilməzsən.*

***

*Hər yazıçı öz əsərlərinə bənzəyir. Nədən, necə yazmasından asılı olmayaraq, onun qəhrəmanları özünə oxşayır. Çünki əsərlərinə özündən zərrələr qatır, qəlbindən keçən duyğuları dilləndirir.*

***

*Böyük sənətkarlar ömrü boyu hücumlara məruz qalırlar. Onlara mane olanlar, qarşılarına sədd çəkənlər həmişə tapılır.*

***

*Hər bir əsər oxucunu tərbiyə etməli, kamilləşdirməlidir. Onun nə dərəcədə dəyərli olduğu da bununla ölçülməlidir.*

***

*Yollar həndəsi xətlərə bənzəyir: paralellər, perpendikulyarlar, əyri xətlər, düz xətlər... İnsan həyatı bu yollar kimidir. Ətrafındakılar ilk baxışda sənə adi görünə bilər. Fikirləşərsən: adamdır da, hamı kimi yaşayır, səhər işə gedir, axşam işdən qayıdır, istidə kölgəyə qaçır, soyuqda üşüyür, xoş sözdən fərəhlənir, acı sözdən tutulur. Amma elə ki, onunla yaxından tanış olarsan, daxili narahatlıqlarını duyub, qəlb çırpıntılarını eşidərsən, uzaqdan adi görünən bu adamın əslində heç kəsə bənzəmədiyinin, cəmiyyətdə yaşamasına baxmayaraq, özünün ayrıca bir ada olduğunun fərqinə vararsan. Ömür hekayətini dinlədikcə, özünü bağışlaya bilmirsən ki, onu gec kəşf etmisən, enişli-yoxuşlu, çalın-çarpaz, ucsuz-bucaqsız ömür yollarına bu vaxtadək bələd olmamısan. Mən qəhrəmanlarımın hamısını belə kəşf etmişəm.*

***

*Böyük sənətkarların adi adamlardan fərqi ondadır ki, onlar dünyanı, həyatı fərqli şəkildə dərk edirlər. Çox hallarda isə zamanı qabaqlayırlar.*





***

*Biz – qələm sahibləri ömür boyu başqalarından yazır, özgələrin qayğı və dərdləri ilə yaşayır, amma öz həmkarlarımıza demək olar ki, diqqət yetirmirik. Bəlkə elə buna görədir ki, qələm sahiblərinin həyatı çox zaman sirr dumanına bürünmüz olur. Bir də onda ayılırıq ki, tanınmış şair və yazıçıları əslində tanımırıq.*

## Vətən sevgisi haqqında

*Azərbaycanın gələcəyi ölkədə demokratiyanın inkişafından asılıdır. Biz ölkəmizi qanuna tabe vətəndaşlar ölkəsinə çevirməliyik.*

***

*Hüquqi dövlət yaratmaq istəyən hər bir ölkə demokratiyanı, humanizmi burada yaşayan bütün xalqlara şamil etməlidir. İkili demokratiya ola bilməz və olmamalıdır. Ölkədə yaşayan bütün xalqların hüquqları qorunmasa, onların birliyi təmin olunmasa, demokratik hüquqi dövlət yaratmaq mümkün deyil.*

***

*Qafqazda yaşayırıqsa, burada yaşayan bütün xalqların tarixini, etnoqrafiyasını, mədəniyyətini, ədəbiyyatını öyrənməliyik.*

***

*Azərbaycanın tarixini onun bütün köklü xalqları birgə yaradıblar. Azərbaycanın vəhdəti, gücü, məğlubedilməzliyi burada yaşayan türklərin, ləzgilərin, talışların, kürdlərin, tatların və digər xalqların birliyindədir.*

***

*Hər xalqın bu dünyada, bu torpağın üstündə, bu günəşin altında yaşamaq haqqı var və bu səadətdən onu heç kəs məhrum edə bilməz.*

***

*Dilinə, dininə, siyasi əqidəsinə, milli və sosial mənşəyinə görə adamlara fərq qoyulmamalı, onlar bütün hüquqlara və azadlıqlara malik olmalıdır.*

***

*Müharibəni siyasətçilər başlayır, ağrı-acısını isə ən çox qadınlar çəkir. Ona görə də biz qadınlar öz haqq səsimizi qaldırmalıyıq, dünyada sülh uğrunda mübarizə hərəkatına öz fəaliyyətimizlə kömək etməliyik. Hamımız dərk etməliyik ki, sülh işində gecikmək olmaz.*

***

*Bu gün dünyamız tarıma çəkilmiş simə bənzəyir. Simi boşaltsan, qırıla bilər. Yer kürəsi üfürülmiş şar kimidir. Nadinc bir uşaq ona iynə batırsa, bu şar partlayar. Yer kürəsi bir himə bənddir ki, hönkürüb ağlasın. Qəsdinə başqa planetlərin sakinləri dursa idi, bu, onu belə ağrıtmazdı. Öz övladları – qoynunda bəslədiyi, köksündə yer verdiyi, çörəyini yeyən, suyunu içənlər indi onu hədələyirlər. Bəşər tarixində görünməyən dəhşətli bir silahla – nüvə silahı ilə.*

***

*Ey müsafir, ayaq saxla! Yol kənarındakı tənha qovağın kölgəsinə dön. Burda bir qismət su iç, qoy ürəyinə sərinlik yayılsın. Sonra qovağın kölgəsindəki məxmər otların üstündə oturub dincini al. Ruhunun zənginləşməsini istəyirsənsə, bu yerin adamları ilə kəlmə kəs, onları dinlə. Sadə insanların ürəklərinin dərinliklərində necə dəruni hisslər, nə cür incə duyğular gizləndiyinin şahidi ol. Şəhər adamlarında görə bilmədiyin təmizliklə, saflıqla, munisliklə qarşılaşdığının fərqinə var. Özün də bilmədən könlün işıqlanacaq.*

***

*Çoxumuz kənddə böyümüş, orada boya-başa çatmışıq. Burada yurd salan-salıb, qalanlar pərvazlanıb hərə bir yana uçub gedib. Lakin hayana getsək də, harada qərar tutsaq da, bir ayağımız doğulduğumuz yerdə olur. Doğma ocağın istisi bizi həmişə özünə çəkir. Bir ay, iki ay qoynunda dincəlib meyvəsini, tərəvəzini, ətini, pendirini, qaymağını çanta-çanta şəhərə daşıyırıq. Bəs özümüzdən yadigar olaraq doğma yurdda nələr qoyuruq? Tapdanmış çəmənlər, budaqları qırılmış ağaclar, tüstülənən ocaqlar... Ondan hər şeyi alır, əvəzində isə heç nə qaytarmırıq.*





***

*Qoltuq ağaclarının köməyi ilə yeriyən insanların görünüşü bir qayda olaraq hüzn, kədər doğurur. Bir həqiqəti hamı etiraf edər: qoltuq ağacı başqa kədərlərlə yanaşı, müharibəni də yada salır – Qarabağ müharibəsini.*

***

*Kənd əhlinin ürəyində əbədi bir hiss yaşayır: torpağa məhəbbət. İllər ötdükcə, adamlar yaşlandıqca bu məhəbbət bir az da güclənir, kökləri dərinləşir. Torpaqdan ayrılmaq çoxları üçün ağır, əzabverici olur. Düzdür, kənd həyatını şəhər mühiti ilə əvəz edənlərin çoxu bu həsrətlə barışır. Lakin bir qisim adamlar ürəklərində yuva qurmuş bu nisgili əritmək üçün yaşadıqları ərazidə gözəl təbiət guşələri yaradırlar.*

***

*Bakının əvvəlki həyatı üçün çox darıxıram. O musiqili, teatrlı, kinolu, kitablı dövr üçün yaman qəribsəyirəm. Şirin xəyyalların qoynunda bu günün ağrı-acılarını, həyəcanlarını unutmaq istəyirəm. O vaxtlar kitab oxumaq, mütaliə etmək bizdən ötrü adi məşğuliyyət idi. Düzdür, biz hər şeydə ifrata varırıq. Kitab almaq da bəziləri üçün dəbə çevrilmişdi. Alimdən tutmuş sürücüyə, fəhləyə kimi hamının evində kitabxana görərdin. Adamlar tonlarla kağız tullantısı təhvil verib əvəzində təzə kitab almaq üçün talon əldə edərdilər. Onların arasında ömründə bir kitab belə oxumayanlar vardı. Amma kitaba qəlbinin ehtiyacını doydur6maq üçün üz tutanlar daha çox idi.*

***

*İnsanlarda yüksək bir keyfiyyət var – alicənablıq. Əslində yüksək mənəvi dəyərlərin hamısı alicənablıqda cəmləşir. Hər vəzifəli, hər ali təhsilli, hər imkanlı şəxs alicənab sayılmır. İstedad kimi o da anadangəlmə olur, sonradan qazanılmır. Alicənab adamda çiy söhbət, qaba rəftar, yarımçıqlıq, vədbazlıq, şöhrətpərəstlik olmur. Ən başlıcası isə, alicənablıq ziyalılığın mühüm atributudur. Hər bir xalqa məhz belə adamlar baş ucalığı gətirir.*

***

*Böyük Vətən müharibəsindən, onun iştirakçılarından söhbət düşəndə ürəyimə həzin bir kədər çökür. Hər il 9 May Qələbə günü yaxınlaşanda həyəcanla fikirləşirəm ki, müharibə veteranlarının cərgəsi yaman seyrəlir. Fəxrimiz, güvəncimiz, istinadgahımız olan bu qocaman adamlar yavaş-yavaş, hiss olunmadan bizi tərk edirlər. Düşünəndə ki, haçansa bu mehriban, nurlu və müdrik çöhrələr bir daha üzümüzə gülümsəməyəcək, onların kövrək xatirələrini dinləyə bilməyəcəyik, məsləhətlərini eşitməyəcəyik, çox təəssüflənirəm. Axı bu adamlardan biz çox şey öyrənməliydik, amma öyrənməmişik. Bir şey şəksizdir ki, veteranların yeri görünəcək.*





## Görkəmli şəxsiyyətlər, qələm dostları və oxucuları Sədaqət Kərimova haqqında

***“Suvar” ansamblının bədii rəhbəri xanım Sədaqət Kərimovaya***

Hörmətli Sədaqət xanım!

Rəhbərlik etdiyiniz “Suvar” Mahnı və Rəqs Ansamblının 10 illik fəaliyyətini yüksək qiymətləndirir və Sizi bu yubiley münasibətilə təbrik edirik.

Azərbaycanda tarixən yaşayan millətlər arasında olan münasibətlər hər zaman dostluq və qardaşlıq səviyyəsində olmuşdur. Mövcüd münasibətlərin möhkəmləndirilməsi, milli azlıqların mədəniyyətlərinin qorunub saxlanılması məsələləri daima Azərbaycan hökumətinin diqqət mərkəzindədir.

Respublikada yaşayan ləzgi millətinin özünəməxsus incəsənətinin inkişafı işində “Suvar” Mahnı və Rəqs Ansamblının böyük əməyi vardır. Sizin 2005-ci ildə “Azərbaycanın Əməkdar mədəniyyət işçisi” adına layıq görülməniz fəaliyyətinizin məntiqi nəticəsidir.

Bütün bunları nəzərə alaraq, Sizə və rəhbərlik etdiyiniz kollektivin bütün üzvlərinə bu şərəfli işin gələcəkdə də uğurla davam etdirilməsində müvəffəqiyyətlər və nailiyyətlər arzu edirik.

Hörmətlə,

**Əbülfəs Qarayev,**
Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri
***28 mart 2006-cı il***

Sədaqətin şeirlərində yeni deyim, yeni fikirlər, ürəkaçan musiqi var. Onu duymaq üçün şair və ya aşıq olmaq vacib deyil. Adi oxucu da hiss edir ki, bu şeirlər səmimi və yaddaqalandır. O, dağlar qoynunda boya-başa çatıb. Şeirlərindəki saflıq, fikirlərin-

dəki aydınlıq da bundandır. İnanıram ki, mərd elin qızı olan Sədaqət tezliklə poeziya zirvəsinə ucalacaq.

**Aşıq Şəmşir,**
*el aşığı*

Mətbuatda onun şeirlərinə on beş-iyirmi il əvvəl rast gəlmişəm. İstedadlı gənclər arasında seçilirdi. Hiss olunurdu ki, kiməsə, hansısa görkəmli şairə oxşamağa deyil, öz yolu ilə getməyə çalışır. Poeziyada ona uğur gətirən də elə budur.

Sədaqətin poeziyası çiçəklənir. Bəzi qönçələri açılmamış gül kimidir. Şeirlərindəki fikirlər aydınlığı və sadəliyi ilə oxuculara daha yaxındır. Şeiriyyətə gözəllik gətirən də bu sadəlikdir. Onun poeziyanın aşırımlarını aşıb öz sözü və səsi ilə tanınacağına əminəm.

**Məmməd Araz,**
*Azərbaycanın Xalq şairi*

Xalqın sevimli şairi olan Sədaqət xanımın poeziyasını təzə, təravətli, insanı ruhlandıran və yaşadan poeziya adlandırmaq olar. Doğma yurda, doğma dilə vurğunluq, ləzgilərin gözəl adət və ənənələrini yaşatmağa və mənəvi saflığa çağırış onun şeirlərinin qayəsini təşkil edir. Yaratdığı yeni sözlər, indiyədək işlənməmiş təşbehlər və qafiyələr Sədaqət xanımın şeirlərinə xüsusi gözəllik verir. Bu gözəlliyi yaratmaq üçün o, sözə zərgər kimi naxış vurur, yeni-yeni çalarlar yaradır, sözü yerində və vaxtında deməklə, minlərlə oxucu rəğbətini qazanır. Son illərdə çap olunmuş kitablarından görünür ki, Sədaqət xanım yaradıcılığına çox tələbkarlıqla yanaşır və daim axtarışlar aparır. Bu isə şairdən, yazıçıdan ötrü çox vacibdir.

**Bayram Səlimov,**
*Dağıstanın Xalq şairi*

"Samur" qəzetinin baş redaktoru Sədaqət Kərimovaya. Hörmətli Sədaqət xanım, Siz Azərbaycanda tanınıb-seçilən, qələmi ilə gözəlliyə, mənəvi-etik dəyərlərə, Azərbaycan və ləzgi xalqlarının sarsılmaz tarixi dostluğuna sədaqətlə xidmət edən peşəkar jurnalist, istedadlı şairsiniz. Sizin şeirlərinizdə və publisist yazılarınızda səmimiyyəti, təbiiliyi xüsusi qeyd etmək istərdim. Şübhəsiz ki, bu, əsl söz-sənət adamının yaradıcılıq uğurlarını şərtləndirən vacib keyfiyyətlərdir. Əziz yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, şəxsi həyatınızda və yaradıcılığınızda yeni-yeni uğurlar arzulayıram.

**Hidayət Orucov,**
*Azərbaycan Respublikası Prezidentinin milli siyasət məsələləri üzrə dövlət müşaviri*
*22 may, 2003*

...Azərbaycanda olduğu kimi, Dağıstanda da tanınan gözəl qələm sahibi, şair-jurnalist Sədaqət Kərimovanın rəhbərlik etdiyi "Samur" qəzeti xalqlarımız arasında dostluğun inkişaf etdirilməsində böyük işlər görür. Ümid edirəm ki, "Samur" qəzeti gələcəkdə də dostluq və əməkdaşlıq ideallarına xidmət edəcək, yüksək mənəvi, xeyirxah və yaradıcı ideyaların təbliğçisi olacaqdır.

**Məhəmmədsalih Qusayev,**
*Dağıstan Respublikasının milli siyasət, informasiya və xarici əlaqələr naziri,*
*2003-cü il*

Azərbaycanın Xaçmaz rayonundakı Ağyazı kəndində yaşayan quruşlulara baş çəkmək üçün buraya gələndə dostum İsgəndər müəllimin bacısı oğlu, istiqanlı şair Müzəffər Məlikməmmədov bir gənc şairin, Sədaqət Kərimovanın ləzgicə dərc olunmuş şeirlərini mənə verdi və dedi: "Şahmir müəllim, poeziyamıza təzə nəfəs gəlir. Oxuyun, görün necə yazır?"

Şeirləri diqqətlə oxudum və çox sevindim. Gördüm ki, ləzgi ədəbiyyatına yeni və işıqlı bir şair gəlir. Onun şeirləri folklor nümunələrimiz qədər şirin və dərindir. Yaxşı gələcəyi olan bu şairə uğurlar arzulayıram.

**Şahmir Muradov,**
*Dağıstanın Xalq şairi*

Sədaqət Kərimovanın utana-utana mənə təqdim etdiyi "Hal" kitabını açmağımla onu oxuyub başa çatdırmağım sanki bir an çəkdi. Kitab məni öz cazibə dairəsinə necə saldısa, ondan ayrıla bilmədim. Son dərəcə maraqlı kitab idi.

Yazıçının həyata dərindən bələd olması, yaxşı müşahidəsi və güclü təhkiyəsi məni elə heyran etdi ki, bu vaxta kimi Sədaqət Kərimova imzası ilə tanış olmadığıma təəssüfləndim. İstedadsız qələm əhlinin meydan suladığı bir vaxtda belə istedadlı yazıçının öz gizlin dünyasında gözdən-nəzərdən uzaq qalmasına təəccübləndim.

**Əzizə Cəfərzadə,**
*Azərbaycanın Xalq yazıçısı*

Poeziyası və nəsri ilə ədəbi aləmdə tanınmış, həm ləzgi, həm də Azərbaycan ədəbiyyatının inciləri sayıla bilən əsərlər yaratmış Sədaqət Kərimovanın yaradıcılığı yüksək bəşəri ideallara xidmət edir. İnsanı mənən saf, xeyirxah, mərd və əyilməz görmək istəyən müəllif əsərlərində oxucuları məhz bu ruhda tərbiyə edir. Ona görə də, onun əsərləri böyük tərbiyəvi əhəmiyyət kəsb edir və xüsusi bədii dəyərə malikdir.

Həm ləzgi, həm də Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələ-rini layiqincə davam etdirən Sədaqət Kərimovanın əsərlərinin dilin təmizliyinin qorunub saxlanmasında və inkişaf etdirilməsində əhəmiyyətli rol oynadığını hiss etmək çətin deyil. O, hər iki dildə sözü nə vaxt, necə işlətmək lazım olduğunu yaxşı bilir və bu materialdan az məsrəflə, amma yüksək zövqlə gözəl əsərlər ərsəyə gətirir.

**Həmidullah Məhəmmədov,**
*A.A.Taxo-Qodi adına Dağıstan Elmi Tədqiqat Pedaqoji İnstitutunun direktoru, akademik*

Ləzgi ədəbiyyatında bir neçə dildə yazmış çoxlu görkəmli sənətkarlar vardır. Ləzgi Saleh, Ləzgi Əhməd, Ehraqlı Rəcəb, Həsən Alqadari kimi tanınmış şairlərimizin ənənələrini müasir dövrdə bir neçə qələm sahibi davam etdirir. Şübhəsiz, hazırda iki dildə – ləzgi və Azərbaycan dillərində yaratdığı əsərləri ilə seçilən şairlərimizdən biri də Sədaqət Kərimovadır. O, öz yaradıcılığı ilə bu ədəbiyyatlar arasındakı qədim əlaqələri daha da möhkəmləndirir, inkişaf etdirir.





Onun yaratdığı bədii lövhələr, obrazlar zəngindir, oxucunu xeyirxahlığa, yüksək ideallar uğrunda mübarizəyə səfərbər etmək gücünə malikdir. Sədaqət xanımın poeziyasında ləzgi qəlbinin genişliyi, haqqı, ədaləti, düzlüyü sevən mərd ləzgi xarakteri, elimizin gözəl adət və ənənələri, əmin-amanlığa, dostluğa çağırış, tarixin indiki keşməkeşli qovuşağında dünyamız üçün narahatlıq qabarıq nəzərə çarpır. Bu baxımdan, Sədaqət Kərimova geniş diapazona malik sənətkar kimi diqqəti cəlb edir.

**Əhmədulla Gülməhəmmədov,**
*filologiya elmləri doktoru, professor*

Sədaqət Kərimovanın mənəvi tərbiyə məsələlərinə həsr etdiyi oçerklərini hər dəfə böyük maraqla oxuyuram. "Sovet kəndi" qəzetini alanda əvvəlcə Sədaqət Kərimovanın imzasını axtarır, ilk növbədə onun məqalələrini oxuyuram. Onun həm Azərbaycan, həm də ləzgi dilində qələmə aldığı məqalələrin dili çox səlis, rəvan və ürəyəyatımlıdır. Ləzgi xalqının yetirməsi, dilçi alim, adi oxucu kimi deyə bilərəm ki, Sədaqət Azərbaycan və ləzgi dillərinin bilicisi, söz sər-rafıdır. Belə jurnalistlər az-az yetişir.

Onun əsərlərinin dili çox səlis və aydındır. Dilçi alim kimi, Sədaqət xanımın bəzi əsərlərinin dilini tədqiq edəndə gördüm ki, o, həm Azərbaycan, həm də ləzgi dillərini bütün incəliklərinə qədər mükəmməl bilir, yeri gələndə bizə bu dilləri öyrədir. Əsərlərində elə ifadələrdən, xalq deyimlərindən istifadə edir ki, onları tapmaq, bədii əsərə gətirmək üçün böyük zəhmət və vaxt lazımdır. Həm də bunlar əksər yazıçıların gen-bol işlətdikləri ifadələr deyil, nadir hallarda eşitdiyimiz, bəzən də bilmədiyimiz frazeoloji ifadələrdir.

İkinci cəhət odur ki, Sədaqət xanım istər Azərbaycan, istərsə də ləzgi dilində təzə sözləri həmin dillərin qrammatik normalarına əsaslanaraq yaradır. Halbuki, bir sıra müəlliflər bu məsələyə

səthi yanaşır, necə gəldi təzə söz yaratmağa çalışırlar. Sədaqət xanımın əsərləri beləlarinə tutarlı cavabdır. İki dildə yazıb-yaradan el qızımın yaradıcılıq uğurlarına qəlbən sevinir və fəxr edirəm.

**Şəmsəddin Sədiyev,**
*filologiya elmləri doktoru*

Sədaqət Kərimova həm nasir, həm də şair kimi qüdrətli və lətafətlidir. Onun ləzgi, Azərbaycan və rus dillərində nəşr olunmuş bədii əsərləri – romanları, povestləri və şeirləri yüksək sənətkarlıq nümunələridir. Həyati faktların reallığı, təbiiliyi, obrazların sosial aləminin, psixoloji dünyasının rəngsiz, boyasız, lakin təbii insani duyğular, həyəcanlar, düşüncələr burulğanında təqdimatı, dilinin gözəlliyi, zənginliyi yazıçı Sədaqət Kərimova istedadının təzahürüdür...

Bu yaxınlarda Sədaqət Kərimovanın sözlərindən və melodiyalarından ibarət mahnıları dinləmək mənə nəsib oldu. Sən demə o, həm də bəstəçi imiş. Necə gözəl mahnılar yaradıb?!

Jurnalist, şair, yazıçı, bəstəçi, öncə mehriban, təvazökar, alicənab insan, dəyərli, qədirbilən ziyalı Sədaqət Kərimova – milli-mənəvi dəyərlərin daşıyıcısı, sərvət yaradıcısı, vətəndaş... Nə yaxşı ki, bu dünyada Sədaqət Kərimova dünyası – söz sənəti var. Yoxsa bu gözəllikləri nədən, haradan duyacaqdım!

Ey fədakar insan! Nə yaxşı ki, bu dünyada varsınız. Qoy həmişə Allah Sizi var eləsin!

**Əjdər Ağayev,**
*pedaqoji elmlər doktoru, professor*

Mənim həyatımda dərin və silinməz izlər qoymuş hadisələr çox olub. Onlardan biri və ən əhəmiyyətlisi ləzgi dili və ləzgilərlə bağlıdır. Mən İsveçrədə anadan olmuşam. Sürix Universitetində təhsil aldığım illərdə Qafqazın qədim dillərindən biri olan ləzgi dili ilə məşğul olmağa başladım. Avropa alimlərinin böyük maraq göstərdikləri, geniş tədqiqat obyekti olan bu dilin nəzəriyyəsini öyrənməkdə mənə alman alimi Martin Xaspelmatın ingilis dilində





nəşr etdirdiyi “Ləzgi dilinin qrammatikası” kitabı çox kömək etdi. Ləzgilərlə yaxından tanış olmaq, onların boğaz samitləri ilə zəngin olan maraqlı dili ilə yaxından təmasda olmaq mənim böyük arzum idi.

Günlərin bir günü Sürix qəzetlərindən birində Türkiyədəki Balıkesir vilayətinin Kirnə kəndində yaşayan ləzgilər haqqında məqalə oxuyanda qərara aldım ki, mütləq ora gedib çıxacağam. Bəli, məndən ötrü ləzgilərlə ilk tanışlıq buradan başlandı. Bir ay həmin kənddə ləzgi ailəsində yaşadım. Mən bu mərd, sözübütöv, sadə və mehriban xalqı ürəkdən sevdim. Dissertasiyamı da ləzgi dilinin felindən müdafiə etdim.

Moskvanın Bibliyanın Tərcüməsi İnstitutunun direktoru kimi fəaliyyət göstərməyə başlayanda rəhbərlik etdiyim layihələrdən biri ləzgi dili ilə bağlı idi. Müasir ləzgi dilinin təəssübünü çəkən, bu dildə yazıb-yaradan, ana dilində qəzet nəşr edən, xalq arasında böyük nüfuza malik yazıçı-jurnalist Sədaqət Kərimova ilə tanış olmaq, onu layihəmizə cəlb etmək böyük arzum idi. Günlərin bir günü ona məktub yazıb Moskvaya, institutumuza dəvət etdim. Burada keçirilən beynəlxalq кonfransda onun iştirakının çoxumuzun arzusu olduğunu ona çatdırdım. Sədaqət Kərimova dəvətimizi məmnuniyyətlə qəbul edib konfransda iştirak etdi. Mən ona ləzgi dilinə tərcümə olunmuş bir sıra mətnlərin redaktəsini təklif etdim. Onun razılığını alandan sonra mən, RF EA Dilçilik İnstitutunun direktor müavini, filologiya elmləri doktoru, ləzgi dilinin tədqiqçisi Mixail Yeqoroviç Alekseyev və Sədaqət Kərimovadan ibarət işçi qrupu işə başladıq. Etiraf edim ki, bu, mənim ən maraqlı və unudulmaz layihələrimdən biri idi. Bu iki adamın ləzgi mətnlərinin aydın, səlis, xalq dilinə yaxın dildə oxuculara çatdırılmasından ötürü göstərdikləri səylər təqdirəlayiq idi. Bir neçə il davam edən bu səmərəli əməkdaşlığın nəticəsi kimi ləzgi dilində “Uşaqlar üçün Bibliya” və sair kitabları nəşr edə bildik.

Əməkdaşlığımız zamanı tək mən yox, institutumuzun bütün kollektivi S.Kərimovanın sadəliyinin, səmimiyyətinin, gördüyü işə qarşı tələbkarlığının şahidi olduq. Onun bəzən 8-10 saat masadan ayrılmadan işləməsi indiyə kimi yadımdadır. Bizim

birgə əməkdaşlığımız sonralar dostluğa çevrildi. Mən bu dostluqla fəxr edirəm, çünki Sədaqət xanım məndən ötrü ləzgi xalqının görkəmli nümayəndəsidir. O, nadir insanlardandır ki, xalqının ən gözəl keyfiyyətlərini özündə cəmləşdirib.

**Marianna Beerle-Moor,**
*Moskva Bibliya Tərcümələri İnstitutunun direкtoru,*
*fəlsəfə doktoru*

Sədaqət Kərimovanın poeziyasının və nəsrinin başlıca keyfiyyətlərindən biri odur ki, müəllif ədəbiyyata daim yeni mövzular, yeni ideyalar gətirir. Klassik təhkiyənin aludəçisi olmur, özünəməxsus təhkiyə yaradır, sadə, anlaşıqlı, hamı üçün aydın olan deyim tərzinə üstünlük verir. Ona görə də Sədaqətin əsərləri maraqla oxunur. Bu əsərlər ədəbiyyatımızın inciləridir.

**Mövlud Yarəhmədov,**
*filologiya elmləri doktoru*

Onun imzası ilə çoxdan tanışam. Bu tanışlığın 40 ilə yaxın tarixi var. Hər hansı müəllifi təbii ki, yazılarına görə tanıyırlar və sevirlər. Həyatını publisistikaya, poeziyaya və nəsrə həsr edən, istər Azərbaycanda, istərsə də Dağıstanda yaxşı tanınan Sədaqət xanım bir-birindən maraqlı əsərlərin müəllifidir. O, özünün “Hal” povesti ilə insan xarakterləri yaratmağın gözəl nümunəsini ortaya qoyub. Onun təbiət təsvirləri təbiətə, onun rənglərinə, səslərinə yaxşı bələd olan bir insanın qələmindən çıxıb və təkcə bu əsərində deyil, digər povest və hekayələrində də yazıçının incə müşahidələri təbiətə məhəbbət duyğusundan yararlanır.

Sədaqət Kərimovanın nəsr əsərlərində mənəviyyat başlıca mövzudur. Onun qəhrəmanları ömrünün qürub çağını yaşayan qocalar, valideynləri tərəfindən atılan uşaqlar, sevgi duyğuları ilə yaşayan cavanlardır. S.Kərimova dərin həyat müşahidələrinə malik nasirdir və bir-birindən fərqli insan xarakterləri yaratmaqda xüsusilə mahirdir. O, maraqlı insan portretləri yaratmaqla bədii portret ustalığını nümayiş etdirir. Yazıçının nəsr dili çox təbiidir, dilimizin zərifliyini, incəliyini əks etdirmək baxımından təsirlidir.





Sədaqət Kərimovanın şeirləri müasir Azərbaycan şeirinin doğma vəzni olan hecada qələmə alınıb və bu vəznin yaşarı ənənələrini davam etdirmək mənasında da maraqlı nümunələr kimi diqqəti cəlb edir. Əksər şairlərimizin toxunduğu mövzulara onun da şeirlərində rast gəlirik. Ancaq S.Kərimova bu məlum mövzularda öz poetik səsi və sözü ilə seçilə bilir.

**Vaqif Yusifli,**
*filologiya elmləri doktoru*

Sədaqət xanım bu gün respublikamızın tanınmış jurnalistlərindən biridir. Öyünürəm ki, özünün dərin analitik mühakiməsi, düşüncəsi və fikri məxrəcə gətirə bilmək qabiliyyəti, yazılarının səmimiliyi və aydınlığı ilə, başqalarını deyəmmərəm, şəxsən mənim özümü çoxdan ötüb keçibdir.

Sədaqət xanım nədən yazır-yazsın, qələmindən çıxan hər bir yazısını böyük maraqla izləyirəm. Bu, onun özünə, şəxsiyyətinə olan hörmət və məhəbbətimdən çox yazılarının kamilliyi ilə daha çox bağlıdır. Bu səmimi etirafıma görə qoy heç kim məni qınamasın. Deməsin ki, sən iri-iri roman və povestlərin, yüzlərlə publisist yazıların müəllifisən, bu, nə təvazökarlıqdır edirsən? Mən isə həqiqəti bütün məsuliyyətimlə etiraf edirəm. Sədaqət xanım təkcə istedadlı peşəkar jurnalist yox, həm də nasirdir.

“Səssiz haray”, “Bir yaz gecəsi” nəsr kitablarıyla oxucuların diqqətini cəlb edən Sədaqət Kərimovanın “Qərib quşun nəğməsi” şeirlər toplusunu görəndə sevindim. Onun söz düzümü, duyumu, poetik aləmi dağ çiçəkləri qədər rəngarəng, irmaqlar qədər çağlardır, safdır, təmizdir. Ömür ağacından şirin, acı meyvələr dada-dada ötüb keçən, yaşanmış bir ömrün dolaylarına təkrarən boylanmaq, həmin günlərə bir də qovuşmaq həsrəti neçə-neçə şeirə çevrildi. O, bu ömrü necə yola verib, büdrəmələri nədəndir, sevincləriylə öyünməyə dəyərmi? Axar su olub axan, bir də geri dönmədən bu ömrü bir daha yaşamaq imkanı əldə olunsa, o neyləyər?

Dünyanın çalxalandığı, az qala məhvərindən çıxdığı, insanların canavardan xislət borc aldığı, nəcibliyin, xeyirxahlığın

başərdən qaçaq düşdüyü bir zamanda Sədaqət mövcud həyat burulğanlarına biganə qalmaq istəmir, belə bir dolaşıq gərdişin içində insanların qəlbində yaşıl duyğu olub göyərən lirik ovqatı yaşatmağa çalışır. Şək-şübhəsiz bu, qaratikanlığın, çamurluğun içində inciçiçəyi bitirmək həvəsindən doğur. Onun şeir dünyası oxucu üçün məhəbbətə açılan ümid dolu mavi pəncərədir, bu pəncərədən ilkin müəllifin özü boylana bilər, sonra onun lirik qəhrəmanı, daha sonra isə müəlliflə həmfikir oxucuları. Bu şeirlərdə biz lirik mənin qəlbində çaxılan səssiz ildırımları, harayları eşidirik, şahidi oluruq. Şairənin sevgi dünyası həsrət, vüsal və əzabdan ibarətdir, elə hamıda olduğu kimi. Ancaq ifadə tərzi, fikrin obrazlı deyimi özünəməxsusdur, orijinaldır.

**Əmir Mustafayev,**
*yazıçı*

ADU-nun jurnalistika fakültəsində dosent kimi çalışdığım dövrdə yaradıcılıq baxımından Sədaqətin o biri tələbələrdən xeyli seçildiyini gördüm və onun jurnalistika sahəsində xüsusi istedadını hiss etdim. “Sovet kəndi” qəzetinin redaktoru işləyəndə artıq əmin oldum ki, o, gözəl qələm sahibidir. Onun qələmindən çıxan bir çox zarisovkalar və oçerklər jurnalistikamızın ən yaxşı nümunələrindəndir.

Sədaqət Kərimovanı Azərbaycanın Tatyana Tessi adlandırmaq olar. İnsanları duyan, onların hiss və duyğularını ustalıqla qələmə alan Sədaqətin insan mənəviyyatı ilə bağlı məqalə və oçerklərinin hər biri bir sənət əsəridir. Müntəzəm axtarışları, yazılarının məzmunu, forma və üslub baxımından orijinallığına görə bir sıra məşhur xarici jurnalistlər də ona həsəd apara bilərlər. O, həm də insanların böyük dostudur. Öz məqalələri və oçerkləri ilə nə qədər insanlara kömək edib, onların dərdini yüngülləşdirib, neçə-neçə kimsəsiz qocalara dayaq olub. İnsanlara laqeydlikdən və unutqanlıqdan əl çəkməyi öyrədib, vəfa, sədaqət, insan olmaq istedadı təlqin edib.

**Nəriman Zeynalov,**
*filologiya elmləri namizədi, yazıçı-jurnalist*





O, heç vaxt qələmi yazmaq xatirinə əlinə almır. Hissləri, fikirləri çözələnəndə, bu və ya digər mövzu qəlbini təlatümə gətirəndə əlinə qələm alır. Ona görə də Sədaqətin qələmindən çıxan hər məqalə, hər oçerk oxucunu düşündürür, tərbiyələndirir, mənən zənginləşdirir.

Sədaqətin başlıca mövzusu insanlardır. Təəssüf ki, insanın taleyini, sevincini, kədərini onun kimi peşəkarlıqla qələmə alan jurnalistlərimiz azdır. Onun qələmindən çıxan yazılarda bəzən bir ifadənin, bir cümlənin, bir abzasın köməyi ilə insanların xarakterini görmək, hiss etmək olar. Sədaqətin qələmindən çıxan yazılarda “hüsni-xuda şairi”, dahi sənətkarımız Hüseyn Cavid “cəfakeş və əzabkeş şair”, böyük ustad Aşıq Şəmşir “dağların qoynunda məhəbbəti dağ kimi böyük, bulaq kimi nəğməli, çiçək kimi ətirli sənətkar”, muğam sənətimizin fədaisi Hacıbaba Hüseynov “qayanın içərisindən göyərən palıd”, Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş igid ləzgi qızı Səmayə Bədəlova “səngərdən boylanan zəriflik” rəmzidir.

Mübaliğəsiz demək olar ki, Sədaqətin məqalə və oçerklərindəki bir çox fikirlərin hər biri bir böyük əsər təsiri bağışlayır. Jurnalist sənətkarlığının incəliklərindən elə məharətlə istifadə edir ki, ən adi mövzunu da oxucuya sevdirə bilir. Sədaqətin hər məqaləsi bir əsərdir.

**Müzəffər Məlikməmmədov,**
*yazıçı-jurnalist*

Sədaqət Kərimovanın həm Azərbaycan, həm də ləzgi jurnalistikasında öz yeri var. Bu istedadlı qələm sahibinin yaradıcılıq uğurları ilə hər birimiz fəxr edirik. Ləzgi xalqının tanınmış söz ustası Sədaqət Kərimovanın son illərdə çap olunmuş kitablarının hər biri sanballı ədəbi abidədir. Onun indiki çətin dövrdə heç yerdən və heç kimdən yardım almadan, ləzgi, Azərbaycan və rus dillərində “Samur” qəzetini buraxması, ana dilini yaşatmaq üçün bütün çətinliklərə və əziyyətlərə sinə gərməsi, milli mədəniyyətimizin və musiqimizin inkişafı naminə var qüvvəsini sərf etməsi əsl qəhrəmanlıqdır.

**Ağarza Saidov,**
*Dağıstanın dövlət qəzeti olan “Ləzgi qəzet”in baş redaktoru*

Sadaqət Kərimovanın şeir, hekayə, povest və romanları bənzərsizdir. O, böyükhəcmli, yüksək ideyalı, dərin mənalı əsərlərində zahiri gözəlliyə, təmtərağa meyl etmədən bütün diqqətini obrazların, insan xarakterlərinin açılmasına yönəldir. Yaratdığı obrazlar elə canlı və inandırıcıdır ki, oxucu özünü onların arasında hiss edir. Mən yazıçının "Hal" əsərini xüsusi qeyd etmək istəyirəm. Əsər elə ustalıqla qələmə alınmışdır ki, uzun müddət onun təsiri altından çıxa bilmirsən və müəllifin insan mənəviyyatının saflaşması istiqamətində gördüyü fəaliyyətinə heyran olursan.

Şair, yazıçı, jurnalist Sədaqət Kərimova bəstəkar kimi də tanınır və sevilir. Özünəməxsus repertuarı və üslubu ilə seçilən "Suvar" ansamblı üçün onun bəstələdiyi mahnılar, bir sıra kütləvi konsert tamaşalarına, musiqili kompozisiyalara yazdığı ssenarilər, verdiyi əlvan və rəngarəng quruluşlar Sədaqət Kərimovanın bir bəstəkar kimi geniş imkanlara malik olduğunu göstərir.

Mənə elə gəlir ki, o, özünün şah əsərini hələ yazmayıb. Həmin şah əsəri oxumaq arzusu ilə, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Bəybala Ələsgərov,**
*Beynəlxalq Nobel İnformasiya Mərkəzinin həqiqi üzvü,*
*BNİM-nin Azərbaycan təmsilçisi*

Sədaqət xanımı gözəl jurnalist, gözəl yazıçı və şair kimi tanıyırıq. Bu insanda zahiri və daxili gözəllik vəhdət təşkil etdiyi kimi, onun yaratdığı obrazlara da yüksək insani keyfiyyətlər, bəşəri hisslər xasdır. Bu xanım əsərlərini həmişə maraqla oxuduğum, böyük rəğbət bəslədiyim müəlliflərdəndir. Özü həyatda çox səmimi olduğu kimi, əsərləri də səmimidir, yaddaqalandır. Onun şeirlərini, poemalarını, hekayələrini və povestlərini söz sənətimizin dəyərli əsərləri hesab edirəm.

Sədaqət Kərimova yaddaqalan publisist yazıları, povest və hekayələri, gözəl şeirləri ilə oxucularını sevindirir. O, gücünü bir neçə janrda sınayan və bu işin öhdəsindən müvəffəqiyyətlə gələn müəlliflərdəndir. Onun qələmindən çıxan əsərlər təbiiliyi, obrazlılığı, dilinin səlisliyi ilə diqqəti cəlb edir. Sədaqət Kərimovanın mövzularının zənginliyi bizi yazıçı qələminin gücünə inandırır.

S.Kərimovanın "Gənclik", "Yazıçı", Azərnəşr, "Azərbaycan" və başqa nəşriyyatlarda çap olunmuş bir neçə kitabını oxumuşam. Onun "Qərib quşun nəğməsi" kitabında toplanmış şeirləri səmimiliyi, axıcılığı, lirizmi, qafiyə və təşbehlərinin zənginliyi, ən başlıcası isə mövzularının özünəməxsusluğu ilə yadımda qalıb. "Hal" povestlər kitabını isə mən Azərbaycan nəsrində hadisə kimi qiymətləndirirəm. Bu əsəri birnəfəsə oxumuş, xeyli müddət onun təsiri altında olmuşam.

**Şahmar Əkbərzadə,**
*şair-publisist*

Sənət taleyimdə bir işıq yanır və işığa uçan pərvanələr kimi mən də o işığı tutub gedirəm. Sədaqət Kərimova. İlk dəfə bu imzayla tanışlığa başlayanda orta məktəbin sonuncu sinfində oxuyurdum. Sədaqət tələbəydi. "Azərbaycan gəncləri" qəzetində diqqətçəkən yazıları çap olunurdu. Onları həvəslə oxuyardım. İçimdə baş qaldıran bir qərib istək məni də o sənətə çəkirdi. Günlərin birində arzuma qovuşdum. Adi tanışlığımız dostluğa çevrildi. Uzun müddət bir-birimizin yaradıcılığını səmimiyyətlə izlədik, təhlil etdik. Tale elə gətirdi ki, nəhayət, bir redaksiyada, bir şöbədə, bir otaqda işləyəsi olduq. Təbiət ondan çox şeyi əsirgəməyib. Zahiri cazibəni də, bir qadın kimi əl qabiliyyətini də, ana kimi mehribanlığı da, bacı kimi cəfakeşliyi də, dost kimi sədaqətliyi də, nəhayət, söz-sənət sahəsində istedadı da.

Sədaqət Kərimova çox səmimi və qətiyyətli jurnalistdir. Onun təkcə "İnciçiçəyi" və "Ömrün qürub çağında" adlı oçerkləri Azərbaycan jurnalistikasına ən uğurlu töhfədir. Mənim jurnalist dostum həm də hissdən, duyğudan yoğrulmuş gözəl misralar müəllifidir. Onun "Qərib quşun nəğməsi" adlı şeirlər kitabı oxucular tərəfindən rəğbətlə qarşılandı. O, maraqlı, yaddaqalan bədii obrazlar yaradan, insanı daxilən saflaşdıran, təzələşdirən nasirdir. "Səssiz haray", "Bir yaz gecəsi" adlı kitabları təsdiqlədi ki, S.Kərimova Azərbaycan nəsrinin çox istedadlı nümayəndəsidir.

Onun qəhrəmanlarını sevməmək olmur. Ümumiyyətlə, bir yazıçı kimi Sədaqət Kərimovanın özünəməxsus nailiyyəti və üslubudur ki, onun müsbət qəhrəmanları həmişə qeyri-adi təbiətə, dərin mənəviyyata, zənginliyə malik olurlar.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

Sədaqət Kərimova öz istedadı və özünəməxsusluğu ilə seçilir. Onun şeirləri, yaddaqalan hekayələri dəfələrlə "Ədəbiyyat" qəzetinin səhifələrində dərc olunub və oxucuların rəğbətini qazanıb. S.Kərimova yazmaq xatirinə yazanlardan deyil. Dövri mətbuatda ardıcıl dərc olunan oçerk və məqalələri, şeir və hekayələri, neçə-neçə kitabı onun istedadından xəbər verir. Sədaqət sözünün qiymətini bilən, şair məsuliyyətini dərk edən zəhmətkeş ziyalıdır.

**Davud Nəsib,**
*şair*

Sədaqət Kərimova xoşbəxt qələm sahibidir. Onun qələmə aldığı əsərlər özünəməxsusluğu ilə seçilir. Əsərlərdəki süjetlər heyrətamiz, mövzular orijinal, işləmə üsulu bənzərsizdir. Sözləri canlı, ifadələri şirəli, misra və sətirləri məna yüklü, ideya cəhətdən tutumludur. Fikirdən-fikrə elə məharətlə, obrazdan-obraza elə ustadlıqla keçid edir ki, oxucu heyran olmaya bilmir.

Təbiət təsvirləri, obraz psixologiyası, mövzu aktuallığı, deyim tərzi ədəbi mühitdə ona öz cığırını salmaqda yardımçı olur. Yazıçı həyatda seçildiyi kimi ədəbi aləmdə də seçilir. Onun yaradıcılığının mayasını təşkil edən təb, ilham, istedad Tanrının töhfəsi olduğu üçün əsərlərində də ilahi duyğusu, ilahi ruhu sezilir.

Sədaqət xanım bütöv yazıçıdır. Çünki kamil şəxsiyyətdir. "Qəlbinə boylan, insan" kitabı dediklərimin bariz nümunəsidir. Onun bütün kitabları bir-birindən fərqlənir. Oxşar cəhət odur ki, hər biri bütövdür. Məkanca geniş, zamanca əbədidir.

**Bəydadaş Cəfərli,**
*şair*





Sədaqət öz sözünü, qələminin kəsərini hələ tələbə ikən Azərbaycan oxucusuna bildirib. Mətbuatda bir-birindən maraqlı, məzmunlu yazılarla çıxış edib. Onun mənəviyyata, əxlaq məsələlərinə həsr etdiyi oçerk və məqalələr obyektivliyi, həyatiliyi, insanları düşündürmək keyfiyyəti ilə fərqlənib. Geniş dünyagörüşünə, zəngin müşahidə qabiliyyətinə, ən başlıcası kövrək qəlbə malik olan jurnalist qələmindən çıxan yazılar həmişə yaxşı əks-səda yaradıb. Onun qəzet səhifələrində qaldırdığı problemlər, qələmə aldığı taleyüklü məsələlər isə həmkarımızın vətənpərvərliyindən, prinsipiallığından xəbər verir.

**Polad Qasımov,**
*"Kirpi" jurnalının baş redaktoru, yazıçı-jurnalist*

Yaxşı yadımdadır, jurnalist Sədaqət Kərimovanın Kəlbəcərə hər gəlişi toy-bayram olurdu. Zəhmət adamları onunla elə ünsiyyət yaratmışdılar ki, ona aid olmayan məsələlər barəsində də bu qayğıkeş qadından kömək diləyirdilər. O da köməyini əsirgəmirdi. Ən ucqar kəndlərdən də onun görüşünə gəlirdilər. Sədaqət xanımın qəzetdə dərc olunan məqalələrini hamı maraqla oxuyurdu.

Mənim barəmdə qəzetdə dərc etdiyi "Şamil Dəlidağın cinas köhləni" məqaləsindən sonra belə qənaətə gəldim ki, Sədaqət xanım həm də ədəbiyyat nəzəriyyəsini dərindən bilən gözəl şair və yazıçıdır. Gündəliyimdə onun haqqında neçə-neçə fikirlər, xatirələr, şeirlər var.

**Şamil Dəlidağ,**
*şair-publisist*

Uzun illərdən bəri tanıdığım, yaradıcılığını həyəcan qarışıq sevinclə izlədiyim Sədaqət Kərimova çağdaş Azərbaycan və Dağıstan ədəbiyyatlarının görkəmli nümayəndəsi kimi milyonların ürəyində özünə yer tutub. Azərbaycan və ləzgi dillərində eyni sənətkarlıq və məsuliyyətlə yazıb-yaradan bu qələm sahibinin bütün yaradıcılığında Şah dağ qüruru, onun çeşmələrinin saflığı duyulur. Vətən, yurd sevgisi ilə dolu olan onun şeirlərindən,

poemalarından tutmuş irihəcmli povest və romanlarına kimi hər əsərinə eli, obası üçün tükənməz sevgisi və təəssübkeşliyi, eyni zamanda yüksək vətənpərvərlik hissləri hopmuşdur. Özü başdan-başa saflıq, səmimiyyət, qeyrət, namusluluq timsalı olan bu mərd və qürurlu insanın qəhrəmanları da özü kimi mübariz, çətinliklərə sinə gərib qələbə çalmağı bacaran, yüksək ideallar uğrunda mübarizə aparan insanlardır. Onların həyatı ilə yaxından tanış olduqca daxilən zənginləşirsən və həyata bağlanırsan. Elə buna görə də Sədaqət Kərimovanın əsərləri çoxdan Azərbaycanın sərhədlərini aşıb.

**Şərafət Dağıstanlı,**
*şair*

Hörmətli Sədaqət xanım! "Qürub" adlı kitabınızı oxuyandan sonra Sizə məktub yazmaq qərarına gəldim. Əsərlərinizi oxuyandan sonra bir daha belə qənaətə gəldim ki, insanların müxtəlif yerlərdə, müxtəlif şəraitdə doğulmalarına baxmayaraq, onların duyğuları, hiss-həyəcanları arasında yaxınlıq və oxşarlıq vardır. Kitabınız məni əfsunladı. Kövrək hisslər, son dərəcə kövrək qəlbli insanlar və bunların arxasından boylanan, aydın hiss olunan həssas müəllif düşüncəsi. Sözsüz ki, Sizin kimi həssas, güclü müşahidə qabiliyyətinə malik müəllifin əsərlərini həssas oxucular daha yaxşı anlayır, bu roman və povestlərin aydın dilini, hər bir cümlənin, sözün arxasında duran dərin mənanı daha yaxından duyurlar.

Hamımıza tanış olan dərdləri, dəfələrlə müşahidə etdiyimiz, amma biganə yanaşdığımız hadisələri elə canlı yaratmısınız ki, insan Sizin son dərəcə incə müşahidə qabiliyyətinizə heyran olmaya bilmir.

"Ağ qəm" povestindəki Talihə, "Gəzəyən" povestindəki Həmid, "Qürub" povestindəki Zariyat, "Ayı yağışı" romanındakı Aydan və Murad surətləri necə də həyatidir! Hərə özünün işıqlı cəhətləri, düşüncələri, arzuları, çatışmazlıqları ilə qələmə alınıb. Bu adamların xeyirxah əməlləri qədər çatışmazlıqları da adama doğma gəlir. Sizin qəhrəmanlarınız həyatı sevir, hər cür əzab və





əziyyətlərə sinə gərir, gələcəyə inanır. Sağ olun ki, belə inamı oxucularda da yaradırsınız. İndiki çətin şəraitdə insanlara nikbinlik təlqin etmək, onlarda inam yaratmaq, cəmiyyətə, xalqa, vətənə yarımaq hissləri aşılamaq üçün ən azı vətəndaş yazıçı, fədakar qələm sahibi olmaq lazımdır.

Əsərlərinizdə diqqətimi cəlb edən Sizin heç kimi təkrarlamayan, elmi məlumatlarla, hikmətli sözlərlə zəngin, maraqlı süjet-kompozisiya xəttinə malik, özünəməxsuz üslubunuz oldu. Sizə yaradıcılıq uğurları arzulayıram.

**Asiyyət Tinayeva,**
*filologiya elmləri namizədi*

Sədaqətin əsərlərində məni ən çox cəlb edən onun yaratdığı obrazların canlılığı, qələmə aldığı hadisələrin ibrətamizliyidir. Bu obrazlar o qədər dolğun yaradılıb ki, peşəkar rəssam onların surətlərini incəliklərinə qədər çəkə bilər.

Hansı dildə yazmasından asılı olmayaraq, əsərlərində doğma xalqının adət-ənənələri, düşüncə tərzi, milli mentaliteti öz əksini tapır. Milli ruh fövqündə yaradılan bu əsərlər bir xalqın mənəvi sərvəti olaraq qalmır, daha geniş əhəmiyyət kəsb edir, bəşəriləşir. "Hal" povesti bu baxımdan ən gözəl misal ola bilər. Həmin əsəri hansı dildə, hansı xalqın nümayəndəsi oxusa, özünə doğma hesab edəcək.

Həm poeziyasında, həm də nəsrində ana təbiətin möhtəşəm obrazını yaradan müəllif, onun vasitəsilə insanı mənən saflaşdırmağa çalışır. Təbiətin gözəllikləri ilə insana ülvi hisslər, yaşamaq və yaşatmaq, xeyirxahlıq hissləri təlqin edir. Bir ömür yaşayırıqsa, onu kin-küdurətlə, nifaqla, müharibələrlə deyil, qurub-yaratmaqla, hörmət və məhəbbətlə, ləyaqətlə yaşayaq deyir. Yaradıcılığı bu həyat fəlsəfəsinə söykəndiyindən, əsərləri oxuculara daha yaxındır. O, hamını düşünür, hamını düşündürür. Yalnız böyük sənətkarlar belə yazmağı bacarırlar.

**Mahmud Çələbov,**
*rəssam*

Sədaqət Kərimovanın poeziyası təbiiliyi və coşqunluğu ilə seçilir. Onun təbiəti ilə şeirləri ahəngdarlıq təşkil edir. Səmimilik və ürəyəyatımlıq, obrazların və bənzətmələrin özünəməxsusluğu ilə seçilən Sədaqət həm həyatda, həm də duyğu-duyumlarında sədaqətli, səmimi və təkrarsızdır. Nədən yazırsa yazsın bulaq kimi qaynayan ilhamından doğulmuş poetik duyğuların selinə düşürsən.

Onun poeziyasında Azərbaycan dili bütün gözəlliyi və təravəti ilə canlanır. Yeni deyimləri, özünəməxsus qafiyə düzümləri yadda qalır. Sədaqətin doğma yurda, ana torpağa məhəbbətlə qələmə aldığı, vətənpərvərlik duyğularına bələnmiş şeirlərini həyəcansız oxumaq mümkün deyil. Onun süjetli şeirlərindəki dərin məzmun oxucunun ürəyinin incə tellərini tərpədir, onda təəssübkeşlik, vətəndaş yanğısını oyadır. Sədaqətin şeirlərini oxuduqca onun mənəvi dünyasının zənginliyinə heyran olursan. Bu poeziyanın leytmotivini dünyamız üçün narahatlıq təşkil edir. Şairin bədii qüdrəti onun fikirlərinin dərinliyində, fəlsəfi məzmunundadır. Sabaha səsləyən, arzu və ümidlərə qanad verən coşqun hisslərin, zərif duyğuların selindən yaranmış bu cür poetik misralar şairin yaradıcılığı haqqında aydın təsəvvür yaradır.

Nəğməkar şair kimi tanınan Sədaqətin lirik ovqatı sözlərin musiqisi ilə yadda qalır, mahnıya asan yatır. Elə buna görə də onun çoxlu şeirinə mahnılar bəstələnib. Öz şeirlərinə ən gözəl mahnıları isə Sədaqət özü bəstələyib. Bu da təbiidir, çünki onun əksər şeirləri musiqi ilə doğulur.

**Rüzgar Əfəndiyeva,**
*şair*

Sədaqət Kərimovanın "Hal" kitabını azı on dəfə oxumuşam. Doğmalarımla, dostlarla bir yerdə kitabdakı az qala hər cümləni, hər fikri təhlil etmişik. Müəllifin xəbəri olmadan özüm-özümlə əsərin müzakirəsini də keçirmişəm. Sonda belə qənaətə gəlmişəm ki, Nobel mükafatının təqdim edilməsi bircə saatlıq, bircə anlıq mənə həvalə edilmiş olsaydı, təkcə "Hal" povestinə görə Sədaqət Kərimovanı və o kitabı, yeni süjet xəttinə görə isə həmin əsəri o mükafata layiq görərdim.

**Sülhiyyə Musaqızı,**
*yazıçı-jurnalist*





Sədaqət Kərimovanın "Qusar, qusarlılar" kitabı xüsusi əhəmiyyət kəsb edir. Sədaqət xanımın həmin kitabı illərlə aparılan tədqiqatların, böyük zəhmətin və doğulub boya-başa çatdığı torpağa ülvi məhəbbətin bar-bəhrəsidir. Sədaqət xanım həmin əsəri ilə böyük bir institutun işini görüb. Ona görə o, böyük ehtirama layiqdir. Onu da qeyd edim ki, "Qusar beşiyim mənim" adlı kitabımda Qusarla bağlı verdiyim məlumatların çoxuna görə ona minnətdaram. Bir də qusarlılara bir dost kimi tövsiyə edərdim ki, qız ərə verəndə cehizinin üstə Sədaqət xanımın "Qusar, qusarlılar" kitabını qoymağı unutmasınlar.

**Elbrus Şahmar,**
*yazıçı*

Hörmətli Sədaqət xanım! Mən çox təəssüflənirəm ki, Azərbaycan məktəbliləri hələ də Sizi zəngin ədəbi irsi olan yazıçı və şair kimi tanımayıblar. Bu, ya Sizin həddindən artıq təvazökarlığınızdan, ya da kimlərinsə etinasızlığındandır. Mən mütləq Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Azərbaycan dili və ədəbiyyatı bölməsinin üzvü kimi bir münasibət tapıb bunu aid qurumlara çatdıracağam. Sizin yaradıcılığınız mütləq dərsliklərə düşməlidir. Söz ustasının tanınması, mənə elə gəlir ki, ilk növbədə dərsliklərdən başlayır.

**Nazim Nəsrəddinov,**
*Əməkdar müəllim*

Hörmətli Sədaqət xanım! Sizin "Ləzgiyyə" pyesinizi oxudum. Mən onu birnəfəsə ruhuma çilədim. Əsəri başa çatdırana kimi ondan ayrıla bilmədim. Çox təsirləndim, sanki hadisələrin içində idim. Yargunatın böyük məhəbbəti, onun sevgilisinə olan sonsuz sədaqəti məni kövrəltdi. Hələ də əsərin təsiri altındayam. Belə sanballı obrazlara ədəbiyyatımızda həmişə rast gəlməzsən. Məni sizin rəvan, axıcı diliniz, yerli-yerində işlədilmiş atalar sözləri, xalq deyimləri də özünə çəkdi. Aydın görünür ki, hər şey yaxşı düşünülüb, çox axtarışlar edilib, bir sözlə, böyük zəhmət çəkilib. Çox təəssüfləndim ki, indiyə kimi sizin nəsr yaradıcılığınızla tanış ola bilməmişəm. Yalnız şeirlərinizlə tanış olmuşam

və onları sevə-sevə oxumuşam. Nəsr diliniz, nəqletmə bacarığınız məni valeh etdi.

Kitabı oxuyub başa çatdıranda belə qərara gəldim ki, “Ləzgiyyə” səhnə həyatı qazanmalıdır. Kitabı bir nəfər oxuyursa, teatrda eyni vaxtda yüz adam tamaşaya baxır. Bu mənada teatrın təsir gücü böyükdür.

**Füzuli Yavər Sərkərov,**
*Qəbələ rayon Teatrının baş rejissoru*

Həyat yaşantılarımın ən təlatümlü çağında sən çıxdın qarşıma “Qürub”! Kitabın adı və rəngi məni cəlb etdi, onu oxumağa başladım. Mən necə bir aləmə düşdüm! Buna mən necə bədii əsər deyim? Bu ki, həyatın özüdür! Müəllifin insan psixologiyasını bu dərəcədə dərindən bilməsinə heyrət və təəccüb edirsən.

Hörmətli Sədaqət xanım! Mən və bütün qürubsevənlər Sizə öz dərin təşəkkürümüzü bildiririk ki, biz oxuculara belə bir ərmağan vermisiniz. Siz, bəlkə də təsəvvür etməzsiniz ki, bu kitab ilə bir qadının sönmüş həyatına çıraq olmusunuz. Ömrünün qürub çağında yaşamaq üçün bir çarə tapılmasına yol göstərmisiniz.

Qeyri-adi yazıçı istedadınıza görə sizə təşəkkür edirəm. Ömrümün qürub çağında Sizin “Qürub”unuz mənim dostum, sirdaşım, həmdəmimdir...

**Solmaz Səfərova,**
*oxucu*

Hörmətli Sədaqət xanım! Neçə gündür ləzgi dilində sizin audio kitabınızı dinləyirəm. Keçirdiyim hissləri qələmə almaqda acizəm. Amma həyəcanlarımı, ürək sözlərimi sizinlə bölüşməyə daxili ehtiyacım var. Sizin necə zəngin ürəyə sahib oldugunuzu şeirləriniz deyir. Onlar adama ümid verir, qanadlandırır, daxilən saflaşdırır. Qoy ürək səsiniz heç zaman susmasın, qələminiz yorulmasın, uğurlarınız daimi olsun. Allah ömrünüzə bərəkət versin, inşallah.

**Loğman Əsgərov,**
*Qəbələ rayonunun Zərgərli kəndi, oxucu*





# I HİSSƏ

# ƏSƏRLƏRİ

## Kitablar

### 1985

**1. Səssiz haray** /Sədaqət Kərimova; red. C.Zeynal.- Bakı: Yazıçı, 1985.-108 s.

*Kitabın içindəkilər:* Özümə məktub; Tut ağacı; Yadda qalan gün; And; Sevinc; Bir dəstə yasəmən; On ildən sonra; Səssiz haray; Süsən.

### 1989

**2. Bir yaz gecəsi**: [povest və hekayələr] /Sədaqət Kərimova; red. E.İsmayılov; rəs. E.Ağayev.- Bakı: Yazıçı, 1989.- 134 s.

*Kitabın içindəkilər:* Gəzəyən (povest); Bir yaz gecəsi; Leyin nağılı; Burdan bir atlı keçdi; Qartal ölümü; Bir cüt qızılgül; Bulaq başında; Gecikdi; Qoşa şəkil (hekayələr).

### 1991

**3. Qərib quşun nəğməsi**: [şeirlər] /Sədaqət Kərimova; red. Ə.Vəkil; rəs. İ.Nurəliyev.- Bakı: Azərnəşr, 1991.- 120 s.

*Kitabın içindəkilər:* Yenidən dünyaya gəlsəydim əgər; Dostum qələm; Uzaqlıq; İtirmişəm; Sonra gec olar; İki qərib; Görüş; Sevda çələngi; Yaxşıdır; Qərib quşam; Sahil bağında düşüncələr; İnciklik; Qəribədir; Əllərim – qələmə; Qədim bir tapmaca; Narahatlıq; Aldadırıq, aldanırıq; Kədər; Axtardığım təbəssüm; Vulkan; Durna; Zaman; Atam danışsın; Çətindir yaşamaq; Hər nəyəm, beləyəm; Kifir qız; Vəfasızdır deməsinlər; “Dünya boyda kədəri”; Ananın balaya xəyanətindən; Bir acı həqiqət; “Ayrılıqdan usanıb”; Odlar qızıyam; Müəllim; Beynim dönüb dəyirmana; Kişilər ağlayanda; Azdımı?; Can deməkdən utanırıq; Nə gözəl görüşdü; Gecə yuxuda da; Yaz səhəri; Ürəyim; Elə bil haçansa

yaşamışam mən; Ata evi; Fəlakət; Fikir; Necə gec keçirdi illər o zaman; Bir yar gərək; Ağrılar, acılar; Qadın xəstələnsə…; Səbr; Kədər; Ölüb diriləydim; Daha nə olacaq?; Qara qız; Ürək; Nə yaxşı; Bir şıdırğı yağış yağır! Dünyanın oxu; Yenidən vurulmaq olar; Bir dəli sevdanın həsrətindəyəm; Unutdur dünyanın dərdini mənə; Ayrılıq yağırdı görüş yerinə; Səndən ayrı; Qısqanıram; Bu yaşıl çəməndimi?; Min şübhə içində; Bizim o qəribə görüşümüzdən; Əsirinə; Sevda nə imiş; Sən yoxsan; Unudaram; Düşüncələr; Nə biləydim; Gizli sevgi; Son görüş; Verərlərmi?; Bu gecə nə yaman qəmli gecədir; Sənsiz; Uzaq elli yar; Mənmi günahkaram, sənmi günahkar?; Darıxıram; Mehribanlıq; Qatarlar; Bir özgəsi; Mən belə deyildim; Yar salıb lövbərini; Bu gecə səninçün qəribsəmişəm; Bilmirəm; Kövrəklik; Aylı gecə; Pozma gəlişinlə sakitliyimi; Sən yadıma düşürsən; Yüzillik bir palıda; Gəl fərəhli günlərimin həmdəmi; Belə sevgidən danış; Səni düşünəndə; Unutmuşam; Üşüyürəm; Nə hal qalar, nə də ki, can; Çıx qarşıma; Sənə get söyləyim?; Bağışla məni; Məhəbbət; Qara saçlar; Calanar, qovuşar sınmış budaqlar; Surətin; Məktub; Kaş nağıl olaydı; Mən belə olmazdım; Qısqanma; Laqeyd baxışlar; Yarıbayarı; Ötən günlər; Gecəm gündüzdən ağır; Nərgiz yağışı; Dəniz və mən; İnciçiçək; Yağış; Gileyli meşə; Şeh; Aşdımdaşdım çiçəyi; Qızılgül; Gözəl mayım; Çiçəkli talada; Qıvrımqıvrım buludlardan; Salam, doğma Qusarım; Belə gözəl bahar görməmişəm mən; Şıltaq uşaqlar təkin; Dəniz təlatümə gəlib bu səhər; Qədəmin mübarək; Dənizin sevdası; Bal arısı; Dava gülü; Bahar ətri; Qərib quşun nəğməsi; İllər ötür; Dünya durur; Sənin görüşünə gəlmişəm, ana; Ana; Kaş biləydim; Burda torağaylar dərddən oxuyur; Yeri yaman görünür; Yuxusuz qalsam.

**1993**

**4. Hal**: [povest və hekayələr] /Sədaqət Kərimova; red. M.Əzizov; rəs. F.İbrahimov.- Bakı: Azərbaycan, 1993.- 312 s.

*Kitabın içindəkilər:* Hal (povest); Vəsiyyət; Qarımış; Ağaclar ağlayanda; Sınaq; Qaratoyuq oxuyurdu; Gecikmiş bənövşə; Tələbə bileti; Görüş; Ustadın yanında; Yanğı; Zarafat; Həsrət; Ayrılıq; Kişmiş; Qızılgül toyu; Gül paylayan qarı; Sarıtel; Dağ





Məhəmməd; Leylək adası; Vəfa; Yaxşılıq; Qran Pri; Barışdılar; On ildən sonra; Qoşa şəkil; Sevinc; Meşəxoruzu; Çanaqlı bağa; Buzulu; Fəryad; Dağlarda bir gün; Ceyran kababı; Sükutun səsi; Möcüzə; Nağaraçı; Qar içində… Günəş; Göy qurşağı.

**2007**

**5. Qəlbinə boylan, insan**: [şeirlər] /Sədaqət Kərimova; red. və ön söz. müəl. R.Əfəndiyeva.- Bakı: Ziya-Nurlan, 2007.- 224s.

*Kitabın içindəkilər:* Duyğuların coşan seli (Müəllif haqqında); Dünyanı məhəbbət yaşadır; Olay; Vətən; İgidlər; Bir hava çal; Yol ayrıcında; Hər nəyəm, beləyəm; Xatirə karvanı; Vaxtsız qonaq; Sahil bağında; Şah dağı; Odlar qızı; Doğmalar; Sınaq; İlham pərisi; Qəm acı; Söz qılıncı; Nigaran; Qərarsızam; Dünya; Qərib quşun nəğməsi; Sevincdən şeir?; Burulğan; Qəm küləyi; İslanmışın nə qorxusu; Möcüzə olaydı; Dostum qələm; Azərbaycanım; Qalaydım kaş; Görüş; Həsrət; Yağmağım gəlir; Yuxu; O zaman; Səbir; Dəyirmançı; Səfər üstə; Bilmirəm; Ürək; Övlad yükü; Qusarım; Bax beləcə; Kədər; Sevdam mənim; Gözəllik; Yaza bilməsəm; Nədən; Durna; Qara qız; Mənə bir şeir de; Dağ yeri – duman yeri; Nə vaxtsa; Bakı; Bir ovuc torpaq; Olmaz beləsi; Dumanla çən arasında; Bütlər; Gileyli; Qar çiçəyi; Arzu; Borc; Gözəl mayım; Dəniz nəğmələri; Sevənlərə; İntizar; Qədəmin mübarək; Toran; İnciçiçək; Sonra gec olar; Yadigar; Elə yaşayaq ki; Yaxşıdır; Bir yağış yağa; Anama; Ovqat; Dava gülü; Qədim bir tapmaca; Xəzər; Vulkan; Çətindir; Ötən günlər; Cavab verəsən gərək; Qadın xəstələnsə; Acı həqiqət; Meşələr; Şeh; Yoxdur üçüncü yol; Ovçu qardaş; Çiçəkli talada; Baharın köçü; Yaz səhəri; Kişilər ağlayanda; Nələr olur; Ömür bir göz qırpımı; Çalma, aman; Necə deyim; Nə deyəsən mən atlıya; Həyat nağıl deyil; Keçmişimdən gələnim; Nə olar; Özgə yarı; Zaman; Yenidən vurulmaq olar; Var; Əsirinə; Belə deyildim; Unutdur; İnciklik; Yarıbayarı; Uzaq elli; Özünü yetir; Əlvida; Bir zəng; Etiraf; Göz qırpımı; Ayrılımmı özümdən; Daha nə olacaq?; İnləmə, qu quşu; İnanma mənə; Həmdəm; Nə yaxşı; Yalan; Üşüyürəm; Pıçıltı; Mənə könül ver; Aylı gecə; Hicran; Belə sevgidən danış; Gəlmədin; Odlana-odlana; Rüzgar; Səninçün;

Qaracam; Sevgi yolları; Ağlasam; Nisgil; Qapını aç; Bağışla məni; Belə həmdərd olmaz; Uzaqlıq; Son səhifə; Vaxt gözləmir; Gələcək; Gülüm; Bir özgəsi; Anlaya bilsəydin; Sən yoxsan; Dəyiş axarını; Qayıda bilsən; Qürub çağında; Dan yeri kimi; Bu yağan arzumu?; Hər şey gəldi-gedərdi; Köndələn; Dəniz və mən; Dəli istək; Bilmirəm; Apar məni; Narahatlıq; Sən varsan; Məhvər; Bir soyuq baxışdan; Səndən ayrı; Qəlbinə boylan, insan!

**6. Qürub**: [povestlər və roman] /Sədaqət Kərimova; red. M.Əzizov.- Bakı: Ziya-Nurlan, 2007.- 334 s.

*Kitabın içindəkilər:* Ağ qəm; Günah; Gəzəyən; Qürub (povestlər); Ayı yağışı (roman).

**2011**

**7. Qusar, qusarlılar**: ensiklopedik toplu /Sədaqət Kərimova; məsl.: Q.Səmədov [və b.]; red. M.Məlikməmmədov.- Bakı: Ziya, 2011.- 703, [1] s.

**2013**

**8. Ağ qəm**: [povestlər və romanlar] /Sədaqət Kərimova; red. Sevda Azizrin; rəs. G.Hüseyn.- Bakı: Azərbaycan, 2013.- 608 s.

*Kitabın içindəkilər:* Bir yaz gecəsi; Səssiz haray; Ağ qəm; Gəzəyən; Günah; Qürub (povestlər); Hal; Ayı yağışı (romanlar).

**2014**

**9. Ləzgilər:** [qısa ensiklopedik məlumat kitabı] /Sədaqət Kərimova, Müzəffər Məlikməmmədov; Üfüq-S MMC.- Bakı: Qanun Nəşriyyatı, 2014.- 40 s.

*Kitabın içindəkilər:* Ləzgilər; Ləzgi dili; Ləzgi əlifbası; Lüğət; Ləzgilər məşhurların gözü ilə; Ləzgi folkloru; Atalar sözləri; Tapmacalar; Görkəmli şəxsiyyətlər; Ləzgi xalçaları; “Lezginka”; Ləzgi mətbəxi; Xalq adətləri.

**10. Ləzgicə-azərbaycanca lüğət** /Sədaqət Kərimova, Müzəffər Məlikməmmədov; rəy.: Ə.Gülməhəmmədov, F.Qəniyeva, Ə.Ağayev.- Bakı: Azərbaycan, 2015.- 800 s.





## Dövri mətbuatda və məcmuələrdə çap olunmuş əsərləri

## Nəsr əsərləri

### Povestləri

**1999**

**11. Ağ qəm** /Sədaqət Kərimova //Samur.- 1999.- 11 noyabr; 25 noyabr; 16 dekabr; 29 dekabr.

**12. Qürub** /Sədaqət Kərimova //Samur.- 1990.- 26 avqust; 16 sentyabr; 30 sentyabr; 14 oktyabr.

**2011**

**13. Qürub** /Sədaqət Kərimova //Ulduz.- 2011.- №10.- S.28-44.

**2013**

**14. Bir yaz gecəsi** /Sədaqət Kərimova //Ulduz.- 2013.- №5.- S.83-96.

## Hekayələri

**1966**

**15. Sınmış qanad** /Sədaqət Kərimova //Azərbaycan pioneri.- 1966.- 25 sentyabr.

**1967**

**16. Dostlar** /Sədaqət Kərimova //Pioner.- 1967.- №10.- S.18.

**1968**

**17. Görüş** /Sədaqət Kərimova //Azərbaycan gəncləri.- 1968.- 3 noyabr.

**1974**

**18. Buzulu** /Sədaqət Kərimova //Göyərçin.- 1978.- №11.- S.9.

**1975**

**19. Qar altda gızılgül** /Sədaqət Kərimova //Sovet kəndi.- 1975.- 28 yanvar.

**1976**

**20. Qartal ölümü** /Sədaqət Kərimova //Sovet kəndi.- 1976.- 14 aprel.

**1978**

**21. Bulaq başında** /Sədaqət Kərimova //Azərbaycan təbiəti.- 1978.- №5.- S.29.

**1980**

**22. Ağaclar ağlayanda** /Sədaqət Kərimova //Azərbaycan təbiəti.- 1980.- №19.- S.15-16.

**1981**

**23. Tut ağacı** /Sədaqət Kərimova //Ədəbiyyat və incəsənət.- 1981.- 4 sentyabr.

**1984**

**24. Yadda qalan gün** /Sədaqət Kərimova //Yeni səslər: Nəsr 1 /tərt ed.: İsa Hümmətov.- Bakı, 1984.- S.172-178.

**1987**

**25. Vəsiyyət** /Sədaqət Kərimova //Dağların qızı lalə: [ədəbi toplu].- Bakı, 1987.- S.60.

**1988**

**26. Bir cüt qızılgül** /Sədaqət Kərimova //Kənd həyatı.- 1988.- №3.





**1989**

**27. Gül paylayan qarı** /Sədaqət Kərimova //Pioner.- 1989.- №2.- S.10-11.

**1990**

**28. Günəş. Qızılgül** /Sədaqət Kərimova //Göyərçin. - 1990.- №4.- S.10-12.

**1992**

**29. Qarımış** /Sədaqət Kərimova //Azərbaycan gəncləri.- 1992.- 7 mart.

**1993**

